AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
# Ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
QƏZET 1991-Cİ İLDƏN ÇIXIR
CÜMƏ AXŞAMI, 03 FEVRAL 2022-Cİ İL / № 04 (1271)
WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU



## Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda iştirak edib

**Fevralın 2-də Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu keçirilir.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumda iştirak edib.**

**Prezident İlham Əliyev Forumda giriş nitqi söyləyib.**

### Prezident İlham Əliyevin giriş nitqi

**- Bu gün Azərbaycanda Gənclər Günü qeyd edilir. Bu münasibətlə sizi və bütün Azərbaycan gənclərini ürəkdən təbrik etmək istəyirəm.**

İyirmi beş il bundan əvvəl ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Azərbaycanda Gənclər Günü təsis edildi və o gündən bu günə qədər fevralın 2-də biz bu günü qeyd edirik. Ondan bir il əvvəl isə Heydər Əliyevin təşkilatçılığı və təşəbbüsü ilə Azərbaycanda birinci Gənclər Forumu keçirilmişdir. O vaxtdan bu günə qədər gənclər siyasəti daim dövlətin prioritetləri sırasında idi. O gündən bu günə qədər bir nəsil dəyişdi və bu gün bu salonda oturan gənclər o vaxt ya hələ dünyaya gəlməmişdi, ya da balaca uşaqlar idi. Bir nəsil dəyişdi və Azərbaycan dəyişdi.

Əgər ovaxtkı Azərbaycan reallıqlarına nəzər salsaq görərik ki, o vaxt vəziyyət çox ağır idi. Müstəqilliyimizin cəmi 6 yaşı var idi, Azərbaycan müstəqil həyata təzə-təzə başlayırdı. Ölkə qarşısında çox böyük, ciddi, fundamental problemlər dayanmışdı. Birinci Qarabağ müharibəsindən cəmi üç il keçmişdi və böyük ümidlər var idi ki, beynəlxalq aləm, vasitəçilər tezliklə Qarabağ məsələsini həll edəcək, ədaləti bərpa edəcək. Belə ümidlər var idi və bütün digər sahələrdə vəziyyət çox ağır idi. Siz gənclər, təbii ki, o illəri görməmisiniz. Ancaq bu, bizim tariximizdir və bizdən sonra gələn nəsillər bu tarixi bilməlidir, unutmamalıdır. Çünki məhz düzgün təhlil apararkən, tarixdən ibrət götürərkən biz inamla irəliyə gedə bilərik.

**O vaxt Azərbaycan özünü dünya arenasında hələ tam təsdiq etməmişdi. Azərbaycan reallıqları, demək olar ki, dünya ictimaiyyəti üçün bəlli deyildi. Bizə qarşı artıq o vaxt və bu günə qədər fəaliyyət göstərən erməni lobbi təşkilatları Azərbaycan haqqında yalan, təhrif edilmiş məlumatlar ötürürdülər. Əlbəttə ki, o vaxt beynəlxalq aləmdə layiqli yer tutmaq öndə duran məsələlərdən biri idi.**

İqtisadi vəziyyətə gəldikdə isə deyə bilərəm ki, o vaxt iqtisadiyyat anlayışı, ümumiyyətlə, yox idi. Çünki Sovet İttifaqı dağılandan sonra Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri tam bərqərar olmamışdı, özəl sahibkarlıq çox aşağı səviyyədə idi. Dövlət qurumları isə hələ yeni idarəetmə üsuluna yiyələnə bilməmişdilər. İqtisadi tənəzzül hər yerdə özünü büruzə verirdi və iqtisadi gələcəyimiz də prinsipcə sual altında idi. Neft-qaz kontraktları təzəcə imzalanmışdı. 1994-cü ildə, bax, bu salonda, bax bu yerdə "Əsrin kontraktı" imzalanmışdı və hamımıza böyük ümidlər vermişdi. Ancaq o vaxt bu layihənin icrasını proqnozlaşdırmaq, əlbəttə ki, mümkün deyildi. Ümidlər var idi, amma əminlik yox idi. 1996-cı ildə "Şahdəniz" qaz yatağı üzrə kontraktın imzalanması da əlavə ümidlər verdi, amma Gənclər Günü təsis ediləndə, - 25 il bundan əvvəl, - əlbəttə ki, bu layihələrin ölkəmizə nə dərəcədə xeyir verəcəyini heç kim proqnozlaşdıra bilmirdi.

**Yüz minlərlə məcburi köçkün ağır vəziyyətdə yaşayırdı, öz doğma torpaqlarından qovulmuş insanlar çadırlarda, vaqonların altında, uyğunsuz binalarda yaşayırdı. Yəni bu idi ovaxtkı mənzərə. Üstəgəl, nizami ordu yaradılmamışdı və nizami ordunun olmaması Birinci Qarabağ müharibəsindəki məğlubiyyətə gətirib çıxardı. Bütün digər xarici amillərlə yanaşı, Ermənistana göstərilən böyük xarici maliyyə və hərbi dəstəklə yanaşı, onu da deməliyik ki, o vaxt Azərbaycanda nizami ordu yox idi.**

Bax, belə bir vəziyyətdə Heydər Əliyev Gənclər Gününü təsis edir və xatırlayıram, o vaxt bəziləri - yəni hakimiyyətdə olanları nəzərdə tuturam - deyirdilər ki, indi bu, əsas məsələ deyil, ölkə qarşısında digər vacib məsələlər var, onlar həll olunmalıdır. Ancaq Ulu Öndər həmişə olduğu kimi, uzaqgörənlik göstərərək məhz gənclərə üz tutdu, onları dəvət etdi, onlara öz tövsiyələrini verdi və gəncləri gələcək inkişaf üçün təşkilatlandırmaq və hazırlamaq üçün əməli-praktiki addımlar atıldı. Əgər biz bu kiçik bir tarixi ekskursa nəzər salsaq görərik ki, Heydər Əliyev nə qədər haqlı idi. Çünki bu gün cəmiyyətimizin böyük hissəsini təşkil edən gənclər ölkəmizin həyatında çox önəmli rol oynayır. Gənclərin təşəbbüsləri, onların əməyi bu gün hər yerdə görünməkdədir və əlbəttə ki, yeni nəslin vətənpərvərlik ruhunda, dövlətə sədaqət əsasında yetişdirilməsi Heydər Əliyevin xidmətləri arasında önəmli yer tutur.

Bu gün Azərbaycan, təbii ki, inamla irəliyə baxır, ölkə qarşısındakı əsas vəzifələr öz həllini tapmışdır. Mən, əlbəttə, Qarabağ məsələsini nəzərdə tuturam. Digər sahələrdə inamla addımlayırıq. Mən son illərin əsas hadisələrini sadalamağa başlasam, bir neçə saat vaxt lazım olacaq. Sadəcə olaraq, demək istəyirəm, indiki gənclər üçün imkanlar, təbii ki, daha genişdir və gənclər bu imkanlardan istifadə etməlidirlər. Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Mən bu sözləri deməklə, eyni zamanda Azərbaycan gənclərinə həm ürək sözlərimi deyirəm, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik.

**Əziz dostlar, sizi bu hadisə, bu tarix münasibətilə bir daha təbrik edirəm və giriş sözümü burada yekunlaşdırmaq istəyirəm. Çünki bilirəm, sizi maraqlandıran məsələlər çoxdur, suallar çoxdur və təklif edirəm ki, artıq müzakirələrə başlayaq.**

## Prezident İlham Əliyev 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə sosial şəbəkələrdəki hesablarında paylaşım edib.**

**Paylaşımda deyilir: "Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm".**

## Birinci vitse-prezident Mehriban Əliyeva 2 Fevral - Azərbaycan Gəncləri Günü ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 2 Fevral - Azərbaycan Gəncləri Günü ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir: "Ölkəmizin gələcək tərəqqisi yolunda gənclərimizə uğurlar arzulayıram!"**

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan gənclərini təbrik edib

**Təbrikdə deyilir:**

**"2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə ölkəmizin gənclərini səmimi qəlbdən təbrik edir, müstəqil Azərbaycanın tərəqqisi naminə onlara böyük nailiyyətlər arzulayıram!**



Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlətimizin gənclər siyasəti bu gün Azərbaycan gəncliyinin inkişafında əhəmiyyətli rol oynamaqdadır.

Dövlətimizin başçısı cənab İlham Əliyevin gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönələn, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamları gənclərin hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunun bariz nümunəsidir.

**Fəxarətlə deyə bilərik ki, Azərbaycan gənclərinin qazandığı uğurlar dünyaya səs salmaqdadır. Bütün sahələrdə, o cümlədən idman, təhsil, incəsənət və digər sahələrdə gənclərimiz dünya miqyasında böyük nailiyyətlər əldə edirlər.**

Artıq ikinci ildir ki, gənclərimiz öz bayramlarını qalib ölkənin vətəndaşları kimi qeyd edirlər. 44 günlük Vətən müharibəsində gənclərimizin göstərdiyi döyüş ruhu, vətənpərvərlik, qəhrəmanlıq dünya gənclərinə nümunə oldu.

**Azərbaycan həmkarlar ittifaqları dövlətimiz tərəfindən müəyyən olunan gənclər siyasətinə həmişə fəal dəstək verir, gənclərlə bağlı bir sıra layihələr həyata keçirir. Gənclərimiz də həmkarlar ittifaqlarının fəaliyyətində mühüm rol oynayır, inkişafına əhəmiyyətli töhfələr verir.**

Bu gün Azərbaycan gəncliyi dövlətimizin hərtərəfli inkişafında yaxından iştirak edir, dövlətimizin başçısı cənab İlham Əliyevin ətrafında daha sıx birləşərək parlaq gələcəyə doğru inamla irəliləyir.

**Azərbaycan gəncləri, Sizi ürəkdən təbrik edirəm! Bayramınız mübarək".**

### Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 6

### Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

### Beynəlxalq

**Səhiyyə və qayğı sektorunda işçi böhranı**

BAX SƏHİFƏ: 7

# Korporativ sosial məsuliyyət tədbirlərində fəal iştirak edən sosial tərəfdaşlar mükafatlandırılıblar



**Korporativ sosial məsuliyyət tədbirlərində aktiv iştirak edərək həssas qruplara dəstək proqramlarının icrasına töhfəsini verən sosial tərəfdaşların mükafatlandırılması mərasimi keçirilib.**

Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, gənclər və idman naziri Fərid Qayıbov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Milli Məclisin deputatları Musa Quliyev, Arzu Nağıyev və başqaları, eləcə də işəgötürənlər iştirak ediblər.

**S.Babayev Prezident İlham Əliyevin tapşırığı əsasında sosial müdafiə və aktiv məşğulluq proqramlarının ildən-ilə xeyli genişləndiyini vurğulayaraq sosial tərəfdaşların korporativ sosial məsuliyyət çərçivəsində bu proqramların icrasına göstərdiyi dəstəyi qeyd edib.**

Nazir "Məşğulluq marafonu"nun da korporativ sosial məsuliyyətin bir nümunəsi olduğunu, işəgötürənlərin şəhid ailəsi üzvləri və qazilərin məşğulluğunun təminatına xidmət edən həmin marafonda yaxından iştirak etdiklərini deyib. Qeyd edib ki, marafona 610 işəgötürən qoşularaq 4030 vakansiya təqdim edib və həmin vakansiyalar üzrə 1600-dən çox şəhid ailəsi üzvü və qazi işlə təmin olunub.

**AHİK sədri Səttar Möhbalıyev bildirib ki, sürətli inkişaf yolu keçən Azərbaycanda korporativ sosial məsuliyyət nümunələri geniş şəkildə müşahidə edilməkdədir. Əslində Azərbaycanda korporativ sosial məsuliyyət prinsipləri hələ 19-cu əsrin sonlarında neft maqnatları Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev və digər sahibkarlar tərəfindən görülən xeyriyyəçilik tədbirlərində öz əksini tapmışdır: "Həmin vaxtlar Bakıda məktəblərin, sağlamlıq və mədəniyyət ocaqlarının tikintisinə, Bakı Su Kəmərinin çəkilişinə, Bakı Dövlət Universitetinin yaradılmasına, həmçinin Avropa universitetlərinə göndərilən gənclərə maddi yardımın göstərilməsinə xeyli vəsait ödənilmişdir. Hazırda ölkəmizin iqtisadi qüdrəti durmadan artmaqdadır, sahibkarlar üçün əlverişli şərait yaradılır və belə olan təqdirdə biznes nümayəndələri daha çox gəlir əldə etməyə başlayırlar və elə bu zaman da onların cəmiyyət qarşısında sosial məsuliyyətləri meydana çıxmış olur. Dövlətimizin başçısı cənab İlham Əliyev öz çıxışlarında işəgötürənlər tərəfindən sosial məsuliyyətin vacibliyinin nəzərə alınmasını tövsiyə edərək demişdir: "Çünki iş adamlarına dövlət hərtərəfli dəstək verir və iş adamları da sosial məsuliyyətlərini dərk etməlidirlər". Ölkəmizdə bir sıra şirkətlər bu gün könüllü şəkildə sosial məsuliyyətə qoşulmuşlar. Heydər Əliyev Fondu, "Paşa Holdinq", "AzerQold" Qapalı Səhmdar Cəmiyyəti və bir sıra banklar, özəl təşkilatlar müxtəlif xeyriyyəçilik tədbirləri həyata keçirməklə bütövlükdə ölkənin tərəqqisinə müsbət təsir göstərirlər".**

Milli Məclisin deputatı deyib ki, Azərbaycanda bu gün korporativ sosial məsuliyyət prinsiplərinin ən yaxşı nümunələri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Yeni Azərbaycan Partiyasının birinci müavini, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva tərəfindən həyata keçirilməkdədir: "Məhz onun rəhbərliyi ilə Heydər Əliyev Fondu korporativ sosial məsuliyyətin əsas prinsiplərini reallaşdırır, cəmiyyəti narahat edən sosial problemləri həll edir, insanların həyat şəraitinin, təhsilinin səviyyəsinin, sağlamlığının yüksəldilməsi üçün layihələr həyata keçirir. Fondun təşəbbüsü ilə xeyli sayda körpələr evi, uşaq bağçaları, məktəblər, valideyn himayəsindən məhrum olan və uşaq evlərini bitirən gənclər üçün yaşayış binaları, səhiyyə, mədəniyyət ocaqları tikilir, 2020-ci il Vətən müharibəsi döyüşlərində yaralanmış əsgər və zabitlərin xarici ölkələrə müalicəyə göndərilməsi və onların yüksək texnologiyalı protezlərlə təmin edilməsi həyata keçirilən bir çox sosial əhəmiyyətli tədbirlərin bir qismidir. Heydər Əliyev Fondunun xeyriyyəçilik tədbirləri ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılışında etdiyi çıxışında demişdir: "Azad edilmiş torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhər Ağa, Aşağı Gövhər Ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi əsaslı təmir edilib. Zəngilan şəhər məscidi də həmçinin. Eyni zamanda Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir. Təkcə sadaladığım dini abidələrin sayı 8-ə bərabərdir və əminəm ki, Fond digər layihələrdə də fəal iştirak edəcək". Heydər Əliyev Fondu təkcə Azərbaycanda deyil, eyni zamanda Avropada, Asiyada, hətta Afrikada da müxtəlif sosial layihələr reallaşdırmaqla bütün dünyaya korporativ sosial məsuliyyətin nümunəsi təqdim edir".

**"Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və onun üzv təşkilatları işçilərin sosial və iqtisadi mənafelərini müdafiə edən təşkilat kimi sosial tərəfdaşlarla əməkdaşlığı korporativ sosial məsuliyyət çərçivəsində də davam etdirir. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası arasında bağlanan "Həssas əhali qruplarının özünün məşğulluğunun təşkilinə köməklik göstərilməsi sahəsində əməkdaşlığa dair memoranduma" uyğun olaraq Nazirliyin Dövlət Məşğulluq Agentliyinin hesabına 200.000 (iki yüz min) manat vəsait köçürülmüşdür. Bu layihə çərçivəsində nəzərdə tutulan tədbirlər həyata keçirilmişdir. AHİK xeyriyyəçilik tədbirlərini davam etdirərək Azərbaycan Milli Elmlər Akademiyasına maliyyə dəstəyi göstərmək məqsədilə ulu öndər Heydər Əliyevin (95 illik) yubileyi münasibətilə gənc alimlərin qrant müsabiqəsinin və Azərbaycan Elm Festivalının təşkilinə ümumilikdə 30.000 manat maddi vəsait ayırmışdır. Təhsildə yüksək göstəricilər əldə edən 130 tələbəyə hər il ümumilikdə 38.000 manat məbləğində adlı təqaüd verilmiş, aztəminatlı ailələrdən olan 255 tələbəyə pulsuz yemək üçün 90.000 manata yaxın vəsait xərclənmiş, ehtiyacı olan tələbələrin təhsil haqqı ödənilmişdir. 2020-2021-ci illər ərzində Təhsil Kredit Fonduna 100.000 manat vəsait köçürülmüşdür", - deyə AHİK sədri bildirib.**

Milli Məclisin deputatı qeyd edib ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və onun üzv təşkilatları Birinci Qarabağ müharibəsi dövründə olduğu kimi, Vətən müharibəsi dövründə də şanlı ordumuza, əsgər və zabitlərimizə, eyni zamanda arxa cəbhədə fəaliyyət göstərən vətəndaşlarımıza maddi və mənəvi cəhətdən dəstək vermək üçün bir sıra tədbirlər həyata keçirmişdir: "Vətən müharibəsi dövründə AHİK İcraiyyə Komitəsinin qərarları ilə AHİK və onun üzv təşkilatları tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fondunun hesabına 1.036.815 manat ianə edilmiş, Qarabağ Dirçəliş Fonduna 600.000 manat vəsait köçürülmüş, "Yaşat" Fonduna 594.770 manat ianə edilmişdir. Bundan əlavə, Silahlı Qüvvələrə və cəbhə bölgəsinə 1.610.771 manat maddi yardım olunmuşdur. Həmçinin qeyd edək ki, 13.735 şəhid ailəsinə və qaziyə 1.915.913 manatlıq birdəfəlik yardım göstərilmişdir. 172 şəhidin 286 övladı 18 yaşına çatanadək himayəyə götürülmüşdür. Bütün bunlarla yanaşı, Vətən müharibəsi iştirakçıları, qazilər və şəhid ailəsi üzvləri sağlamlıqlarının bərpa olunması məqsədilə, istəklərinə uyğun olaraq, sanatoriya-kurort yollayışları ilə təmin olunurlar. Pandemiya dövründə AHİK və onun üzv təşkilatları tərəfindən (2020-2021-ci ilin 9 ayı) ümumilikdə 16.025.177 manat məbləğində maddi və ərzaq yardımları göstərilmişdir. Koronavirusla Mübarizəyə Dəstək Fonduna 632.672 manat, "Regional İnkişaf" İctimai Birliyinin hesabına 705.000 manat vəsait köçürmüşdür. 114.724 aztəminatlı ailəyə 4.833.163 manatlıq yardım edilmiş, o cümlədən 76 şəhər və rayonda yaşayan aztəminatlı ailələrə iki dəfə ərzaq sovqatları paylanmışdır. Bunlarla yanaşı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası hər il "İlin ən yaxşı müəssisəsi (təşkilatı)" başlığı altında müsabiqə keçirir ki, bu müsabiqədə əməyin, ətraf mühitin mühafizəsi məsələsi önə çəkilir və qalib müəssisələr müxtəlif nominasiyalar üzrə mükafatlandırılırlar".

Sosial məsuliyyət anlayışının çox geniş və dərin mənası olduğunu vurğulayan S.Möhbalıyev deyib: "Burada əsasən üç sahə - maliyyə, onun fəaliyyətinin cəmiyyətə və ətraf mühitə, ekologiyaya təsiri əsas götürülür. Bu, təkcə biznesə deyil, hökumətə, ictimai və könüllü təşkilatlara aiddir. Bu səbəbdən də hamı əlbir olmalı, Korporativ Sosial Məsuliyyət Konsepsiyasının həllinə bərabər çalışmalıyıq. Tədbirin proqramına əsasən, işəgötürənlərin müxtəlif nominasiyalar üzrə təltif olunması keçiriləcəkdir. Odur ki, təltif olunacaq işəgötürənləri təbrik edir, onlara uğurlar arzulayıram".

Mərasimdə digər çıxış edənlər ölkəmizdə həssas əhali qruplarının rifah halının yaxşılaşdırılmasına xidmət edən proqramlarda sosial tərəfdaşların fəal iştirakını həmrəylik nümunəsi kimi də qeyd edərək, ümumən vətəndaş rifahının təminatı proseslərinə dəyərli töhfə olduğunu vurğulayıblar.

**Sonra məşğulluq layihələrində fəal iştirakı ilə seçilən sosial tərəfdaşlara şəhid ailələri üzvlərinin, müharibə iştirakçılarının, əlilliyi olan şəxslərin, gənclərin, qadınların məşğulluğunun təmin olunmasına dəstək verən ən aktiv özəl sosial tərəfdaşlar, həmçinin "Məşğulluq" altsisteminə ən çox vakansiya yerləşdirən, "Məşğulluq" altsistemi üzərindən göndərişlər əsasında ən çox əmək müqaviləsi bağlayan, ən aktiv özəl sosial tərəfdaşlar nominasiyaları üzrə mükafatlar təqdim edilib.**

## SƏTTAR MÖHBALIYEV:

## *"Azərbaycan gəncləri gələcək nəsillərə əsl qəhrəmanlıq nümunəsidir"*

**"Tarixən gənclər cəmiyyətin əsas hərəkətverici və aparıcı qüvvəsi olmaqla hər bir dövlətin gələcək inkişafının müəyyən olunmasında mühüm rol oynayıb. Ölkəmizdə də onların rolu həmişə yüksək qiymətləndirilib, perspektivli fəaliyyətləri üçün hər cür şərait yaradılıb. Ulu öndər Heydər Əliyev istər sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə, istərsə də müstəqil respublikamızın prezidenti olarkən gənclərə xüsusi diqqət yetirirdi, onların sağlam mühitdə böyüməsi və tərbiyə alması, müasir elmi biliklərə yiyələnməsi, peşəkar kadr kimi yetişməsi üçün dövlət səviyyəsində hər şeyi edirdi. Gənclər siyasətinin ayrı-ayrı istiqamətləri üzrə müvafiq sənədlər imzalanır, onların sosiallaşmasına xüsusi diqqət yetirilir, müxtəlif proqramlar hazırlanır, görüşlər keçirilir, layihələr icra olunurdu. Bir sözlə, gənclər siyasəti Ulu Öndərin siyasi fəaliyyətinin mühüm tərəfini təşkil edirdi".**

**Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.**

Onun sözlərinə görə, 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması Azərbaycan gənclərinin həyatında əlamətdar bir hadisə idi: "Nazirlik ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirməklə bu sahədə vahid dövlət siyasətinin reallaşdırılmasını təmin edir. Ümummilli Liderin gənclər forumunun təşkili ilə bağlı 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilir. Bu da gənclərin cəmiyyətin həyatında rolunun artmasında, ölkənin gələcək inkişafında onların iştirakının və məsuliyyətinin yüksəlməsində, ölkə gəncləri arasında fikir mübadiləsinin aparılmasında mühüm rol oynayır. 1997-ci il fevralın 2-də Ulu Öndər tərəfindən imzalanan Fərmanla fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edildi. O vaxtan başlayaraq hər il ölkəmizdə Gəncləri Günü təntənəli şəkildə qeyd olunur.

Ulu Öndərin gənclərlə bağlı imzaladığı bir çox sənədlər ümumilikdə respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün hərtərəfli şərait yaratdı, gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən etdi".

**S.Möhbalıyev qeyd edib ki, Ulu Öndər tərəfindən əsası qoyulan gənclər siyasəti bu gün dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və gənclər ölkəmizin dinamik inkişafında müstəsna rol oynamaqdadır: "2007-ci ilin "Gənclər ili" elan edilməsi gənclərin ölkənin ictimai-siyasi və mədəni həyatında fəallığının daha da yüksəlməsinə səbəb olmuşdur. Gənclərin rifahına xidmət edən dövlət proqramlarının icrası gənclərin potensialının inkişafına, məşğulluğunun təmin olunmasına mühüm töhfələr vermişdir. Dövlətimiz tərəfindən gənclərin dövlət quruculuğu prosesində və ölkənin ictimai-siyasi həyatında fəaliyyəti təmin olunur, yaradıcı gənclərin potensialı, qüvvəsi, bilik və bacarığı yüksək qiymətləndirilir, həmçinin gənclərin təhsil və sosial problemlərinin həlli, onlar üçün yaradıcı mühitin formalaşdırılması, gənc ailələrin sosial, məişət problemlərinin aradan qaldırılması istiqamətində davamlı işlər görülməkdədir".**

"Parlaq Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi Azərbaycan gəncləri üçün böyük bir sınaq oldu. Müzəffər Ali Baş Komandanın ətrafında dəmir yumruq kimi birləşən gənclərimiz böyük birlik nümayiş etdirdilər və Vətənin müdafiəsinə qalxdılar. Məhz onların vətənpərvərlik hissi, yüksək döyüş ruhu 30 ilə yaxın müddət ərzində düşmən işğalında olan torpaqlarımızı cəmi 44 günə azad etdi, hər biri işğalçı düşmənə qarşı rəşadətlə döyüşdü. Vətən müharibəsi göstərdi ki, onlar dövlətə sədaqət, Vətənə sevgi ruhunda tərbiyə alıblar və hər zaman müstəqilliyimizin, suverenliyimizin, dövlətçiliyimizin keşiyində ləyaqətlə dayanacaqlar. Ümidvarıq ki, yetişəcək yeni-yeni nəsillər böyük birlik və qəhrəmanlıq nümayiş etdirmiş bugünkü Azərbaycan gəncliyindən nümunə götürəcək və onların yolunu şərəflə davam etdirəcək", -deyə Milli Məclisin deputatı vurğulayıb.

**AHİK sədri bildirib ki, ölkəmizin ən böyük ictimai təşkilatı olan Azərbaycan həmkarlar ittifaqları dövlətimiz tərəfindən müəyyən olunan gənclər siyasətinə öz səlahiyyətləri çərçivəsində fəal dəstək verir: "Gənclərin böyük qisminin həmkarlar ittifaqı sıralarında birləşməsi təşkilatımızın bu istiqamətdə məsuliyyətini daha da artırır. Belə ki, həmkarlar ittifaqı üzvlərinin 22.2 faizini (29 yaşadək) gənclər təşkil edir. AHİK müxtəlif vaxtlarda "Azərbaycanda uşaq və gənclərin hüquqlarının müdafiəsi və mənəvi tələbatlarının ödənilməsi sahəsində həmkarlar ittifaqlarının fəaliyyəti və tədbirlər planı", "Gənclər siyasəti konsepsiyası", "Azərbaycan həmkarlar ittifaqlarının gənclər siyasətinin həyata keçirilməsi", "Azərbaycan həmkarlar ittifaqlarının gənclər siyasəti üzrə fəaliyyətinin əsas istiqamətləri" və başqa qərarlar və digər sənədlər qəbul etmiş və uğurla həyata keçirilmişdir".**

Konfederasiya sədri əlavə edib ki, Azərbaycan həmkarlar ittifaqları işləyən və təhsil alan gənclərin hüquqlarının müdafiəsi, işəgötürənlər tərəfindən gənclərin hüquqlarına əməl olunması, gənclərin həmkarlar ittifaqı sıralarına cəlb olunması və fəal gənclərin sayının artırılması istiqamətində də səylə çalışır: "AHİK-in dəstəyi ilə hər il yay aylarında həmkarlar ittifaqlarının gənc liderlərinin forumları keçirilir, həmçinin həmkarlar ittifaqlarının rəhbər strukturlarında gənc kadrların sayını çoxaltmaq məqsədilə maarifləndirmə kursları təşkil olunur. İl ərzində 100-dən artıq gənc bu kurslarda öz bilik və bacarıqlarını artırır. Bundan başqa, ali və orta təhsil müəssisələrində əlaçı tələbə-gənclər üçün adlı təqaüdlər təsis edilir və onlara mükafatlar təqdim olunur. Həmçinin AHİK tərəfindən "İlin peşəkar gənci" fəxri adı təsis edilib və peşəkarlığı ilə həmkarlar ittifaqının fəaliyyətində fərqlənən gənclər qiymətləndirilir. İndiyə kimi 27 sahə həmkarlar ittifaqı təşkilatından 300 nəfərdən artıq gənc bu fəxri ada layiq görülüb".

**S.Möhbalıyev vurğulayıb ki, Azərbaycan həmkarlar ittifaqları bundan sonra da gənclərlə bağlı fəaliyyətini uğurla davam etdirəcək, dövlətimizin bu istiqamətdə gördüyü bütün işlərə fəal dəstək verəcək: "Bir daha gənclərimizi Gənclər Günü münasibətilə təbrik edir, onlara dövlətimizin daha inkişafı yolunda böyük nailiyyətlər arzulayıram. Bayramınız mübarək, Azərbaycan gəncləri!"**

**AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**



# Milli Məclis Azərbaycan ilə Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsini təsdiqləyib

**Fevralın 1-də Milli Məclisin yaz sessiyasının ilk plenar iclasında digər məsələlərlə yanaşı, 2021-ci il iyunun 15-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə qanun layihəsi müzakirə olunub.**

**Parlamentin sədri Sahibə Qafarova** bildirib ki, dost və qardaş xalqlarımızın arzu və niyyətlərinin bariz ifadəsi olan bu Bəyannamə ölkələrimiz arasında strateji tərəfdaşlığın inkişafında tamamilə yeni səhifə açıb.

**Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov** "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə qanun layihəsi haqqında məlumat verib. O, ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim olunan bu sənədin millətimiz və dövlətimiz üçün tarixi əhəmiyyət kəsb etdiyini deyib. Bildirib ki, xalqımızın illərlə həsrətlə gözlədiyi, şəhidlərimizin qanı ilə qazanılmış, Ali Baş Komandan, Prezident İlham Əliyevin müstəsna xidməti və qəhrəmanlığı ilə yazılmış bu tarixi sənəd bu gün parlamentdə ratifikasiya olunmalıdır. Komitə sədri Şuşa Bəyannaməsini Azərbaycan dövlətçilik tarixinin ən mühüm sənədlərindən biri kimi qiymətləndirib. Bu gün gərgin olan beynəlxalq münasibətlərdə Türkiyə və Azərbaycan əlaqələrini müttəfiqlik səviyyəsinə yüksəldən bu tarixi sənədin regionda yeni yaradılmış reallığın qorunması və inkişaf etdirilməsi istiqamətində əhəmiyyətindən danışan komitə sədri onu azad olunmuş Qarabağın müdafiəsini, Azərbaycanın gələcəyini ən yüksək səviyyədə təmin edən sənədlərdən biri kimi qiymətləndirib.

**Deputatlar komitə sədri Səməd Seyidovun Şuşa Bəyannaməsi barədə məlumatını alqışlayaraq dəstəklərini ifadə ediblər. Parlamentin sədri Sahibə Qafarova məsələyə münasibətində bildirib: "Biz - Altıncı çağırış Milli Məclisin deputatları çox xoşbəxtik ki, belə bir sənədə səs veririk".**

Layihə ətrafında müzakirələrdə çıxış edən deputatlar Şuşa Bəyannaməsini Qarabağda sülh içində yaşamaq istəyən bütün xalqlara təhlükəsizlik təminatı verən sənəd adlandırıblar.

Sonra "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq olunması barədə qanun layihəsi qəbul edilib.

**İclasda İntizam komissiyası və Hesablayıcı komissiyanın yaradılması haqqında qərar layihələri də qəbul olunub. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyev İntizam komissiyasının üzvü seçilib.**

# Döş nişanı təqdim olundu



**Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının (ATİAHİ) yaradılmasının 100 illiyi münasibətilə təsis olunmuş "Yubiley döş nişanı" ilə təltif olunub. Rektor bu mükafata həmkarlar ittifaqı hərəkatına verdiyi dəstəyə görə ATİAHİ Respublika Komitəsinin Rəyasət Heyətinin qərarı ilə layiq görülüb.**

Döş nişanını universitetin rektoruna ATİAHİ Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə təqdim edib. O, Respublika Komitəsinin sədri, millət vəkili Səttar Möhbalıyevin xoş arzularını çatdırıb, həmkarlar ittifaqı təşkilatına göstərdiyi diqqət və qayğı üçün rektora təşəkkürünü bildirib.

**Tədbirdə universitetin prorektoru Yusif Qasımov, həmkarlar ittifaqı komitəsinin sədri Cabbar Mahmudov iştirak ediblər.**

# Gənclərlə görüş



***Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. Ulu öndərimiz Heydər Əliyevin müvafiq sərəncamı ilə hər il 2 Fevral - Azərbaycanda Gənclər Günü kimi qeyd olunur. Ümummilli lider Heydər Əliyevin gənclərə göstərdiyi böyük diqqət və qayğı, onların potensialının inkişaf etdirilməsi və irəli çəkilməsi istiqamətindəki siyasi kurs bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Aparılan dövlət siyasətinin nəticəsidir ki, Azərbaycan gəncləri 44 günlük Vətən müharibəsində dünyaya rəşadət, vətənpərvərlik nümunəsi göstərdi. Elm, mədəniyyət, idman sahələrində uğurlu nəticələrlə beynəlxalq aləmdə seçilməkdədirlər.***

Dövlətimizin gənclər siyasətini həyata keçirən Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Şəki Rayon Komitəsi də xidmətindəki təhsil müəssisələrində çalışan və təhsil alan gənclərdən qayğı və diqqətini əsirgəmir. Belə ki, belə tədbirlərin davamı olaraq fevralın 1-də Şəki Rayon Komitəsi və Şəki Şəhər Təhsil Şöbəsi, pandemiyanın tələblərinə uyğun olaraq, 2 Fevral-Gənclər Günü münasibətilə təhsil müəssisələrində çalışan fəal gənc müəllim və tələbələrlə görüş keçirmişdir. Görüş Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə açılmış və Vətən müharibəsində qəhrəmanlıq göstərmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. Rayon komitəsinin sədri Ziyafət Xasiyeva çıxış edərək müasir Azərbaycan gəncliyinə milli-mənəvi dəyərlərimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi yaşatdıqlarını qürurla qeyd etdi. Tövsiyə etdi ki, gələcəkdə də gənclərimiz mənəvi sərvətlərimizə sədaqətlə sahib çıxsınlar. Ziyafət müəllimə II Qarabağ döyüşlərində iştirak etmiş 17 nəfər təhsil işçisidən 6-nın gənc olduğunu qeyd etmişdir. Demişdir ki, Gənclər günü ərəfəsində biz bu gəncləri mizi, eləcə də peşə vəzifəsini daha yaxşı icra edən 200 nəfər gənc fəal ittifaq üzvünü mükafatlandırmışıq.

Sonra Təhsil Şöbəsinin müdir əvəzi Elxan Abdullayev gəncləri təbrik etmiş və tövsiyələrini vermişdir.

**Tədbirdə digər çıxışlar da dinlənilmişdir.**

**Sonda müxtəlif nominasiyalar üzrə müsabiqələrdə, yarışlarda yer tutmuş 41 nəfər gənc həmkarlar ittifaqı fəalına və II Qarabağ müharibəsi iştirakçısına Hİ Rayon Komitəsinin Fəxri fərmanları, hədiyyələri təqdim olundu.**

# İlham Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində vətənpərvər gənclər ordusu yetişdi



**Fevralın 2-də Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqının təşkilatçılığı ilə Nazirlikdə Azərbaycan Gəncləri Günü münasibətilə tədbir keçirilib.**

Tədbirdə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov və Fövqəladə Hallar Nazirliyinin bir qrup əməkdaşı iştirak edib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə çıxış edən ittifaq sədri Mehman İsmayılov ölkəmizdə gənclərlə bağlı həyata keçirilən dövlət siyasətindən ətraflı bəhs edib. Xalqımızın ümummilli lideri Heydər Əliyevin müvafiq Sərəncamı ilə 1997-cı ildən başlayaraq 2 fevralın Azərbaycan Gəncləri Günü kimi qeyd edildiyini diqqətə çatdıran M.İsmayılov bildirib ki, ölkədə gənclər siyasətinin əsası Ulu Öndər tərəfindən qoyulub. Onun sözlərinə görə, hələ sovet dövründə Azərbaycan gənclərinin nüfuzlu ali məktəblərdə təhsil almasında, uğurlu karyera qazanmasında Ümummilli Liderin xüsusi əməyi olub, ikinci dəfə hakimiyyətə qayıdışından sonra da Azərbaycanda gənclər hər zaman xüsusi dövlət qayğısı ilə əhatə olunub.

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün Ulu Öndərin əsasını qoyduğu dövlət gənclər siyasəti uğurla davam etdirilir. Natiq gənclərin mənəvi inkişafı, vətənpərvərlik ruhunda tərbiyəsi, xarici ölkələrdə yüksək təhsil qazanması, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlərdən danışaraq, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şəraitdən də söz açıb. Qeyd olunub ki, məhz Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində vətənpərvər gənclər ordusu yetişdi və bu gənc nəsil böyük Zəfərlə bitən 44 günlük Vətən müharibəsində özünü bir daha təsdiq etdi.**

Mehman İsmayılov qeyd edib ki, bu gün Azərbaycan gəncləri qürurla ümummilli lider Heydər Əliyevin siyasi kursuna sadiq qalaraq, cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, ölkə həyatının bütün sahələrində uğurla çalışmaqla dövlətimizin inkişafına öz töhfəsini verir.

Sonra ittifaq sədri FHN-də çalışan gənclərin həm Vətən müharibəsi dövründə göstərdikləri qəhrəmanlıqdan, həm də gündəlik xidmətlərində nümayiş etdirdikləri əzmkar fəaliyyətlərindən danışıb. Ötən ilin yayında qardaş Türkiyədə baş verən meşə yanğınlarının söndürülməsində, qəza-xilasetmə işlərində gənc əməkdaşların peşəkar və fədakar fəaliyyəti qeyd olunanların bariz nümunəsidir.

**Sonra Fövqəladə Hallar Nazirliyinin vəzifə borcunu yerinə yetirərkən xüsusi fərqlənmiş 48 nəfər gənc əməkdaşı FHN İşçilərinin Həmkarlar İttifaqı tərəfindən Fəxri Fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.**

# HESABATLAR DİNLƏNİLDİ




**Yanvarın 26-da Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin xidmətində olan Regional Ərazi Metodiki mərkəzlərin məsul əməkdaşlarının iştirakı ilə vebinar iclası keçirilib.**

Tədbiri giriş sözü ilə Respublika Komitəsinin sədri Cəmilə Səttarova açdı və Regional Ərazi Metodiki mərkəzlərin fəaliyyətinin hazırkı durumuna münasibətini bildirdi. Dedi ki, sahə Hİ-nin XVIII Respublika konfransında 2018-2022-ci illər üzrə qəbul edilmiş əsas istiqamətlərdən irəli gələn vəzifələr, demək olar ki, uğurla həyata keçirilir. Bizim bu sahədə işimizi daha da sürətləndirmək və keyfiyyətcə yaxşılaşdırmaq üçün potensialımız kifayət qədər çoxdur. Bu potensialdan bəhrələnməkdən ötrü həmkarlar ittifaqı kadrlarının peşəkarlığına diqqət artırılmalı, ən yaxşı təcrübə nümunələri öyrənilib işdə tətbiq olunmalıdır.

**C.Səttarova tədbir iştirakçılarına digər tövsiyə və məsləhətlərini də verdi.**

Gündəlikdə duran məsələ ilə əlaqədar Respublika Komitəsinin şöbə müdirləri Zaur Həmidov və Samir Əhmədzadə də çıxış etdilər. Ötən il Respublika Komitəsinin üzv təşkilatlarda apardığı yoxlamaların, baxışların nəticələrinin qənaətbəxş olduğunu söylədilər.

**Sonra Regional Ərazi Metodiki mərkəzlərin əməkdaşlarının hesabatı dinlənildi.**

# Vətən namusunun keşikçilərinə hörmət və diqqət




**Yanvarın 28-də Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin xidmətinə daxil olan müəssisələrdə çalışan II Qarabağ müharibəsi qaziləri ilə "DİSPUT KLUB" çərçivəsində vebinar görüş keçirilmişdir.**

2 Fevral - Gənclər Gününə həsr olunmuş tədbiri giriş sözü ilə sahə Hİ Respublika Komitəsinin sədri Cəmilə Səttarova açmışdır. Çətin günlərdə Vətənin çağırışına hay verən, cəbhədə fədakarlıq və qəhrəmanlıq nümunəsi göstərən bu gənclərə torpaqlarımızın 30 illik işğalına son qoyduqları üçün təşəkkürünü bildirmişdir. Cəmilə xanım demişdir: ölkə başçısı İlham Əliyev dəfələrlə gənclərimizlə qürur duyduğunu bəyan edib. Siz, doğrudan da, ataların, anaların, bütövlükdə Azərbaycan xalqının qürur yerisiniz. C.Səttarova fəxrlə qeyd etdi ki, vətənpərvərlik, Vətənin namusu uğrunda canını belə fəda etmək xalqımızın genindən gəlmədir. Bu hisslərin daim ayaqda qalması üçün dövlətimiz, ictimai qurumlar, o cümlədən həmkarlar ittifaqları böyük işlər görür.

**Biz, həmkarlar ittifaqı olaraq, uzun illərdir ki, gənclər şurasının, gənclər komissiyalarının vasitəsilə gənc işçilər üçün Vətənə məhəbbət ruhunda çeşidli tədbirlər keçiririk. 16500 nəfər gənc işçinin hamısı olmasa da, böyük əksəriyyəti bu tədbirlərə iştirakçı kimi cəlb olunur. Sahə üzrə Birinci və İkinci Qarabağ savaşlarında vuruşan ittifaq üzvlərindən 395 nəfərdən çox qismi qazi kimi doğma kollektivinə dönmüş, bir neçəsi isə şəhidlik zirvəsinə ucalmışdır. İstər qazilər, istərsə də şəhidlərimizin ailəsi həmişə qayğımız əhatəsindədir. Tez-tez onlarla görüşlərimiz olur. Hər birinə vaxtaşırı yardımlar göstərilir.**

Respublika Komitəsinin Beynəlxalq əlaqələr və informasiya şöbəsinin müdiri Zaur Həmidov çıxış edərək 44 günlük müharibə dövründə cəbhə bölgəsinə göstərilən dəstəkdən danışdı.

Vebinara dəvət olunmuş Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Hüquq şöbəsinin müdir müavini, II Qarabağ müharibəsinin iştirakçısı, ehtiyatda olan zabit Ruslan Bağırov döyüş xatirələrini tədbir iştirakçıları ilə bölüşdü. Ordumuzun müzəffər yürüşü, silah yoldaşlarının cəsarəti, hünəri barədə iftixarla söz açdı.

**Vebinarın digər iştirakçıları hazırda sahə Hİ şəhər, rayon komitələrində, ilk təşkilatlarda çalışan qazilər də döyüş yollarından epizodları diqqətə çatdırdılar.**

# Gələcəyimiz gənclərimizdən asılıdır



Arzu NAĞIYEV



Fazil MUSTAFA

**Ulu öndər Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək söyləyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".**

2020-ci il sentyabrın 27-də başlayan haqlı müharibəmizdə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın işğal altında olan ərazilərini erməni tapdağından azad edən gənclərimiz Vətəninə, dövlətinə sevgisini dünyaya, dostlara və düşmənlərə bariz şəkildə göstərdi. Bu qəhrəmanlıqları ilə tarix yazıb yeni və gələcək nəsillər üçün örnək oldular. Gənclərimizdəki bu vətənpərvərliyi, rəşadəti bilib onlara böyük ümid bəsləyən Ulu Öndər ölkənin ərazi bütövlüyünü, müstəqilliyinin qorunmasını gənclərə əmanət edərək "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" demişdi.

## *Onların problemlərinin həlli gələcəyimizə gedən yollarda yaşıl işıqların yandırılması deməkdir*

**Bir sözlə, gənclik hər bir ölkənin gələcəyinin bünövrəsi, təməl daşıdır. Ona görə də gənclərin elmi biliklərə yiyələnməsi, sağlam ruh və bədənə malik olması, milli dəyərlərimiz əhatəsində tərbiyəsi ən vacib məsələlərimizdəndir. Bəs bu məsələlərin davamlı olaraq təkmilləşdirilməsi, gənclərin hərtərəfli inkişafı ilə bağlı hansı addımlar atılır? Onların ən mühüm problemləri nədir? Gənclərimizlə bağlı bu və ya digər sualları millət vəkillərimiz Arzu Nağıyev və Fazil Mustafa cavablandırdılar.**

"Gənclər bizim genefondumuzdur, gələcəymizdir. Bu gün dövlət tərəfindən aparılan islahatlarda da gənclər birmənalı olaraq ön plandadır. İstər təyinatlarda, kadr islahatları ilə bağlı məsələlərdə gənclərə mühüm yer verilir. Siyasi, iqtisadi, hərbi, həmçinin mədəni həyatda bu özünü bariz şəkildə göstərir". Bunu millət vəkili Arzu Nağıyev bildirdi. Dedi ki, universitetlərdə, elm ocaqlarında təhsil aldıqdan sonra gənclərin işlə təminolunma prosesi, gənc ailələrlə bağlı atılan addımlar, onların mənzil şəraitinin yaxşılaşdırılması, ipoteka ilə bağlı yeniliklər mühüm əhəmiyyət kəsb edən məsələlərdir. Yəni bu proseslərdə həm dövlətin, həm də qeyri-hökumət təşkilatlarının rolu danılmazdır. Deyərdim ki, bütün strukturlar bu istiqamətdə müvafiq addımlar atır ki, gələcək genefondumuz üçün perspektivlər açılsın. Çünki onların problemlərinin həlli gələcəyimizə gedən yollarda yaşıl işıqların yandırılması deməkdir.

**Bu gün artıq bölgələrdə də bu istiqamətdə ciddi addımlar atılır. Amma, sözsüz ki, bir sıra problemlər də qarşıya çıxır. Bu məsələlərin həlli istiqamətində istər icra qurumları, qanunverici orqanlar və birbaşa cavabdeh olan təşkilatlar əməli fəaliyyət göstərirlər. Lakin düşünürəm ki, bu sahədə görüləcək işlərimiz də hələ çoxdur. Bu gün gənclərə qoyulan hər hansı bir maddi və mənəvi sərmayə gələcəkdə Azərbaycanın çiçəklənməsi deməkdir. Ona görə də bu istiqamətdə vəhdət şəklində mühüm addımlar atmalıyıq.**

Bundan əlavə, çalışmalıyıq ki, hər bir gənc öz keçmişini mütləq bilsin. Siyasi, hərbi, iqtisadi cəhətdən məsələlərin həllinə hazır olsun. Bir milləti məhv etmək üçün onun milli mənəviyyatını, kimliyini, dilini əlindən almağa çalışırlar. Bu cür təsirlərə məruz qalmamaq üçün müstəqil Azərbaycanın parlaq gələcəyi naminə hər zamankı kimi birlik göstərməli, genefondumuzu qorumalıyıq.

**Millət vəkili Fazil Mustafa** bildirdi ki, Azərbaycanda bütövlükdə gəncliklə bağlı hazırda yürüdülən siyasətdə kifayət qədər boşluqlar var. Bunun da fəlsəfi təməli doğru qurulmayıb. Ona görə ki, gənclik deyəndə, sadəcə, mexaniki bir yaş müddəti üzərindən fikir yürüdülür. Bunun əsasında da gənclər evi və digər modellər yaradıldı. Onların da ciddi effekti olmadı. Gənclərlə bağlı təhsildən tutmuş idmana qədər, miqrasiya və başqa məsələləri də əhatə edə biləcək ölkənin dövlət siyasəti formalaşmalıdır. Bu məsələ ciddi, kompleks müzakirə tələb edir. Gənclərlə bağlı ipotekadan tutmuş erkən nikah, təhsil, işlə təminolunma və digər məsələlər sistemli bir proqram tələb edir.

Millət vəkili qeyd etdi ki, biz ilk növbədə gəncliyin savadlı yetişməsinə nail olmalıyıq. Bunun üçün qızlara məxsus ayrıca proqram tərtib olunmalıdır. Birmənalı olaraq ölkədə təhsilsiz qız uşağı qalmamalıdır. Azərbaycan ailəsinin savadsız ana üzərində qurulmasının qarşısını almalıyıq. Çünki savadsız ata da olanda daha acınacaqlı vəziyyət yaranır. Hesab edirəm ki, bunun üçün də biz xeyli gecikmişik. Yenə də ciddi cəhdlər, müzakirələr aparılmalıdır. Yerlərdə gənclərin asudə vaxtının səmərəli təşkili, işsizliyin aradan qaldırılması və digər məsələlər üzərində işləmək lazımdır.

**Söhbət gənclərdən açılmışkən sonda mən də öz fikrimi, qısa da olsa, bildirmək istəyirəm. Gənclik sabaha inam, böyük həvəs, hadisələrə yeni baxış deməkdir. Ölkə əhalisinin 23,6 faizini təşkil edən gənclərə qayğı dövlət siyasətinin mühüm tərkib hissəsidir. Biz necə gənclər yetişdirsək, tərbiyə etsək, deməli, dövlətimizin sabahı, gələcəyi də o cür olacaq. Onların hərtərəfli inkişafının, problemlərinin ölkə rəhbərliyinin diqqət mərkəzində olduğunu, milli siyasətin prioritet məsələlərindən birinə çevrildiyini hər birimiz aydın şəkildə görürük. Lakin görməklə qalmayıb, hər birimiz Azərbaycanın arzuolunan gələcəyi üçün bu sahədə əlimizdən gələn dəstəyi əsirgəməməliyik. Düşünürəm ki, xüsusən də kütləvi informasiya sahəsində fəaliyyət göstərənlər hökumətlə gənclər arasında vasitəçi rol oynayır. Onların ictimai həyatın müxtəlif sahələrində öz potensiallarını gerçəkləşdirmək, eyni zamanda gənclərin ən mühüm problemlərini işıqlandIrmaqla bu istiqamətdə atılan addımları sürətləndirmək kütləvi informasiya vasitələrinin (KİV) prioritet vəzifələrindəndir. Hazırda KİV-də və sosial media platformalarında sorğular aparılarkən gənclər ən mühüm problem kimi karyera imkanlarının yetərli olmamasını, mənzil problemi, təhsil standartlarının xarici ölkələrə nəzərən aşağı olmasını və s. qeyd edirlər. Bütün bu məsələlər ilə bağlı dəyərli millət vəkillərimiz Arzu Nağıyev, Fazil Mustafa da fikirlərini qeyd etdilər. Ümid edirəm ki, gənclərin problemlərinin həlli istiqamətində dövlət səviyyəsində birlik şəklində davamlı addımlar atılacaq, biz hər il gənclər günü ərəfəsində gənclərin problemlərini deyil, uğurlarını müzakirə edəcəyik.**

Əsli TELMANQIZI

# Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında həmkarlar ittifaqlarının rolu

**Demokratiyanın mərkəzində insan hüquqları dayanır. İndiyə kimi mövcud olmuş dövlətlərin nüfuzu da insan hüquqlarına münasibət və onun vəziyyəti ilə ölçülüb. Məhz insan hüquq və azadlıqları cəmiyyətdə demokratiyanın təşəkkül tapmasında və inkişafında həlledici rola malik olub. Buna görə də insan hüquq və azadlıqlarının bərqərar olunması demokratiyanın başlıca prinsiplərindən hesab edilir.**

Bu sahədə ictimai təşkilatların da fəaliyyəti təqdirəlayiqdir. Vətəndaşların dövlət üzərində nəzarətini məhz bu təşkilatlar təmin edir. Demokratiya yolu tutan dövlətlərdə bu kimi təşkilatların fəaliyyəti, vətəndaş cəmiyyətinin qurulması vacibdir. Məhz ictimai təşkilatlar dövlətlə vətəndaş arasında əlaqə funksiyasını həyata keçirərək cəmiyyətin demokratikləşməsinə, insan hüquq və azadlıqlarının təmin edilməsinə xidmət göstərir.

Demokratiyanın təzahürü kimi meydana çıxan həmkarlar ittifaqları da insan hüquq və azadlıqlarının təmin olunmasına xidmət edən əsas təsisatlardandır. Bu gün istər ölkəmizdə, istərsə də dünyada həmkarlar ittifaqlarının fəaliyyətinə nəzər saldıqda görünür ki, bu birlik ictimai zərurətdən yaranıb, vətəndaş cəmiyyətinin formalaşmasında, liberal dəyərlərin bərqərar olmasında, demokratiyanın inkişafında müstəsna əhəmiyyətə malikdir.

**Qeyd edək ki, həmkarlar ittifaqları böyük tarixi yol qət edərək bir sıra sınaqlardan keçib. Zaman-zaman dövrün tələblərinə uyğun davamlı inkişafı təmin etməklə aparılmış islahatlarla, yenilənmiş hüquqi mexanizmlərlə statusunu müəyyən edib və sosial tərəfdaşlığın təminatçısı kimi humanist mövqeyi ilə hər bir cəmiyyətdə böyük nüfuz sahibi olmağı bacarıb. Mövcud olduğu dövrdən bu günə kimi əmək adamlarının hüquqlarının müdafiəçisi funksiyasını əlində əsas tutaraq bu missiyanın uğurlu icrasının təmin olunmasına nail olub. Bu ictimai təşkilatın mövcud olmadığı cəmiyyətlərdə demokratiyadan söhbət belə gedə bilməz. Bu institut heç bir siyasi məqsəd daşımır, əsasən cəmiyyətlərdə mövcud olan tərəflər arasında vətəndaş sülhünü, barışı təmin etməklə demokratiyanı şərtləndirir. Hətta mövcud olduğu totalitar, avtoritar siyasi rejimlərdə belə, liberal dəyərlərə söykənərək insan hüquq və azadlıqlarının müdafiəçisi kimi mübarizə aparıb. Həmin rejimlər isə ölkədə həmkarlar ittifaqlarının fəaliyyətini qeyd etməklə demokratik görkəm almağa çalışıblar. Ümumiyyətlə, həmkarlar ittifaqları üzərinə götürdüyü öhdəliklərin mahiyyət və xarakterinə uyğun olaraq demokratik prinsiplər üzərində fəaliyyət göstərməyə məhkumdur. Əks təqdirdə bu birlik öz ənənəvi qayəsindən uzaqlaşaraq mahiyyətini itirə, funksiyalarını dəyişə bilər.**

Dünyada mövcud olan bütün həmkarlar ittifaqlarının proqramlarına, nizamnamələrinə, məramnamələrinə ümumi nəzər saldıqda görünür ki, bu birliklərin fəaliyyətinin mərkəzində insan faktoru dayanır və onların sosial problemlərinin həllinə, iqtisadi maraqlarının təmin olunmasına, əmək sahəsində bütün qanuni hüquq və mənafelərinin qorunmasına xidmət edir. Bu da insan hüquq və azadlıqlarının təminatı baxımından demokratiyanın prinsip və vəzifələrinə tam uyğun olmaqla vətəndaş cəmiyyətinin formalaşmasına və mütərəqqi istiqamətdə inkişafına mühüm töhfədir. Məhz buna görə də hər bir cəmiyyətdə vətəndaş cəmiyyətinin formalaşması üçün həmkarlar ittifaqlarının yaradılması zərurətə çevrilmişdir. İdarəetmə formasından və siyasi quruluşundan asılı olmayaraq bütün dövlətlərin konstitusiyalarında həmkarlar ittifaqları ilə bağlı müddəa öz əksini tapır.

İlk dəfə XVIII əsrin 2-ci yarısında Böyük Britaniyada fəhlələr öz peşə mənafelərini qorumaq və sosial statusunu müdafiə etmək üçün birlik yaratdılar. Daha sonra XIX əsrdə istehsalat sahələri üzrə həmkarlar ittifaqları, milli həmkarlar ittifaqı mərkəzləri meydana gəlməyə başladı və sonralar bu proses daha da genişləndi.

**Ölkəmizdə də həmkarlar ittifaqlarının fəaliyyəti yarandığı və formalaşmağa başladığı tarixdən bu günə kimi bir-birinə zidd və əks-qütblərdə dayanan iki müxtəlif ictimai formasiyada - kapitalizm və sosializm, daha sonra isə yenidən kapitalizm quruluşunda yaşamağa məcbur olub. Buna baxmayaraq, dövrün tələblərinə uyğun şəkildə əsas ideologiyasına sadiq qalaraq funksiyalarını uğurla və mütəşəkkil səviyyədə davam etdirib, böyük inkişaf yolu keçib.**

Azərbaycanın da daxil olduğu Rusiya imperiyasının daxilində ilk dəfə 1905-ci ildən həmkarlar təşkilatlarının yaradılmasına başlanıldı. Ardınca Azərbaycanda da belə təşəbbüslər kütləvi hal aldı və nəhayət, həmin ilin oktyabr ayının 17-də Bakıda konka fəhlə və qulluqçularının həmkarlar ittifaqı fəaliyyətə başladı. Noyabr ayında isə mətbəə işçiləri həmkarlar ittifaqında birləşdilər. Həmin dövrdə kontor qulluqçuları, şəhər, mədən qulluqçuları, ticarət gəmiçiliyi qulluqçularının xırda həmkarlar ittifaqları da mövcud idi. 1905-ci ilin sonunda Bakıda "İttifaqların ittifaqı bürosu" yaradıldı.

1906-cı il martın 4-də həmkarlar ittifaqı haqqında xüsusi qanun - "Ticarət və sənaye müəssisələrində şəxslər və ya bu müəssisələrin sahibləri üçün təsis edilmiş həmkarlar cəmiyyətləri haqqında müvəqqəti qayda" qəbul edildi. Bu qanun həmkarlar ittifaqlarına nizamnamələri müəssisə rəhbərliyi tərəfindən tanınmaqla leqal fəaliyyət göstərmək imkanı verirdi.

Bu vaxta qədər isə sahibkarlar külli-ixtiyar sahibi olmaqla əmək münasibətlərinin bütün şərtlərini özləri müəyyən edirdi, işçilər isə hüquqsuz vəziyyətə salınmışdı, özbaşınalıq hökm sürürdü. Beləliklə, həmkarlar ittifaqlarının fəaliyyətə başlaması ilə tədricən bu problem aradan qalxmağa başladı və işçilər arasında ittifaqların rəğbəti artdı, sosial baza genişləndi.

Sovet hakimiyyəti illərində də Azərbaycanın ictimai-siyasi həyatında həmkarlar ittifaqlarının mövqeyi və fəaliyyəti mühüm əhəmiyyət kəsb edirdi. Amma daha çox sovet ideologiyasının nüfuz qazanmasına xidmət etməyə, kommunist-bolşevik ideyalarının təbliğinə istiqamətləndirildi. Totalitar rejimin bərqərar olması, inzibati-amirlik sisteminin bütün sahələri əhatə etməsi bu çoxsaylı təşkilatın respublikanın iqtisadi, siyasi və mədəni həyatındakı çoxtərəfli fəaliyyətini kəskin şəkildə məhdudlaşdırdı, üzvlərinin mənafeyini müdafiə etmək üçün vəzifələrini faktiki olaraq müstəqil yerinə yetirmək imkanını itirdi, partiyadan asılı vəziyyətə düşüb onun tapşırıqlarının icraçısına çevrildi. Onların fəaliyyətində əsas yeri partiyanın irəli sürdüyü mühüm təsərrüfat və siyasi vəzifələrin həyata keçirilməsinə kömək etmək tuturdu.

**Buna baxmayaraq, ictimai təşkilat olaraq özünün müstəqilliyini, qismən də olsa, saxlamış, təməl prinsiplərini ləyaqətlə qoruyaraq hüquqlarının müdafiəsini onlara etibar etmiş həmkarlar ittifaqı üzvlərinin qanuni maraqlarını şərəflə yerinə yetirməyə çalışmışdır. O cümlədən işçilərin əmək, məişət və istirahət şəraitinin yaxşılaşdırılmasında, hüquq və mənafelərinin müdafiə olunmasında, onların istehsalat və ictimai işlərinin idarə olunmasında mühüm işlər görmüş, hər vasitə ilə onlara kömək etmişdir.**

Həmçinin əmək adamlarının həmkarlar ittifaqlarında birləşmək istəyi, hüquqlarının müdafiəçisi qismində bu birlikləri seçməsi, ciddi siyasi rejim şəratində olsa belə, həmkarlar ittifaqlarının statusunu artırırdı.

Həmkarlar ittifaqlarının sovet dövründəki fəaliyyətindən danışarkən Heydər Əliyevin Azərbaycanda rəhbər işlədiyi zamanları (1969-1982-ci illər) xüsusi vurğulamaq yerinə düşər. Ulu Öndər çətin siyasi şərait olmasına baxmayaraq, həmkarlar ittifaqlarını daim dəstəkləmiş, dayaq olmuş, müdrik məsləhət və öyüdlərini onlardan əsirgəməmişdir. Xalqa, əmək adamlarına böyük dəyər verən, onlara xidmət etməyi özünün ali vəzifəsi hesab edən Heydər Əliyev həmkarlar ittifaqları vasitəsilə bu missiyanı daha rahat şəkildə həyata keçirməyi bacarırdı. Məhz Uu Öndərin respublikaya rəhbərliyi dövründə həmkarlar ittifaqları uzaqlaşdığı təməl prinsiplərinə yenidən dönməyə başladı, sıraları genişləndi. Əsas diqqət əməkçilərin həyat şəraitinin yaxşılaşdırılmasına, onların hüquqlarının artırılmasına və müdafiəsinə, istirahətlərinin təşkilinə və sağlamlıqlarının qorunması istiqamətində tədbirlərə yönəldildi. İstirahət mərkəzi və sanatoriyaların sayı artırıldı, yeni uşaq düşərgələri yaradıldı.

Daim həmkarlar ittifaqlarını diqqətində saxlayan Ulu Öndər respublikaya rəhbərliyi dövrünə təsadüf etmiş həmkarlar ittifaqının 3 qurultayında iştirak edib geniş nitq söyləmiş, fəaliyyətini yüksək qiymətləndirmiş, həmkarlar ittifaqının cəmiyyətin inkişafında xidmətlərindən bəhs etmişdir.

**1980-ci ildə Azərbaycanda həmkarlar ittifaqlarının yaranmasının ildönümü münasibətilə keçirilən yubiley tədbirində çıxış edən Ulu Öndər həmçinin həmkarlar ittifaqı işçilərinin və fəallarının bir qrupuna Fəxri fərmanlar təqdim etmişdir. O, iştirak etdiyi həmkarlar ittifaqlarının bütün tədbirlərində əmək adamlarının hüquqlarının və mənafeyinin qorunmasının, istehsalatda demokratik prinsiplərin inkişaf etdirməyin vacib olduğunu bildirmişdir.**

Emin MƏMMƏDOV

davamı növbəti sayımızda

# YALNIZ YERLİ İSTEHSALI GENİŞLƏNDİRMƏKLƏ VƏ İDXALDAN ASILILIĞI AZALTMAQLA

## *ərzaq təhlükəsizliyinin gücləndirilməsinə nail olmaq mümkündür*



Vüqar Bayramov

Bəs ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün hansı tədbirlər görülməlidir? Ərzaq məhsullarının qiymətlərinin stabil saxlanılması üçün hansı addımlar atılmalıdır? İşğaldan azad olunmuş ərazilərdən istifadə bu məsələnin həllinə necə təsir edəcək?

**Suallarımızı iqtisadçı-alim, millət vəkili Vüqar Bayramov və iqtisadçı-ekspert Rəşad Həsənov cavablandırdılar.**

"2021-ci ildə pandemiya səbəbindən dünyada qiymətlər, demək olar ki, rekord səviyyəyə yüksəldi. Ərzaq məhsullarının qlobal bazarda qiyməti 38 %, taxıl məhsullarının qiyməti isə 45% artdı. Təəssüf ki, 2022-ci ildə qiymət artımlarının davam edəcəyi gözlənilir". Bu eləcə də yerli istehsalın artırılmasında xüsusi rolunun olacağı gözlənilir. Bu, strateji bir yanaşmadır. Növbəti illərdə bu istiqamətdə tədbirlərin daha da güclənəcəyi gözlənilir. Bununla belə, indiki halda proqnoz ondan ibarətdir ki, istehlakın yerli istehsal hesabına ödənilməsi strategiyası və bu sahədəki tədbirlər 2022-ci ildə daha da gücləndirilsin. Çünki yalnız yerli istehsalı genişləndirməklə və idxaldan asılılığı azaltmaqla ərzaq təminatı və ərzaq təhlükəsizliyinin gücləndirilməsinə nail olmaq mümkündür.

**İqtisadçı-ekspert Rəşad Həsənov dedi ki, bu, kifayət qədər mürəkkəb koordinasiyanı özündə birləşdirən bir prosesdir. Baxmayaraq ki, Azərbaycanda 2008-2015-ci illərdə ərzaq təhlükəsizliyi proqramı icra olundu. 7 illik proqramın tətbiq olunduğu illərdə ərzaq ba-** rilməsi sahəsində addımların atılmasına ehtiyac var. Təbii ki, bu sahədə müəyyən istiqamətlərdə işlər görülür. Amma təcrübə göstərir ki, bir çox hallarda bu funksiyanı yerinə yetirən qurumlar öz öhdəliklərini ya keyfiyyətsiz yerinə yetirir, ya da ümumiyyətlə, yetirmir. Ehtiyatların həcminin şəffaf şəkildə, real vaxt rejimində izlənilməsi lazımdır ki, bu məsələ həllini tapa bilsin. Həmçinin bu missiyanı yerinə yetirən qurumların fəaliyyətinin izlənilməsini təmin edən mexanizm formalaşmalıdır. Məsələn, Taxıl Fondunun ehtiyatları ilə bağlı məlumatları hətta medianın özü əldə edə bil-



Rəşad Həsənov

**Prezident İlham Əliyev yanvarın 12- də yerli televiziya kanallarına müsahibəsində jurnalistlərin Azərbaycanda 2021-ci ildə iqtisadi, sosial sahələrdə görülən işlərə aid suallarını cavablandırarkən ərzaq təhlükəsizliyinin gücləndirilməsinin də ən vacib məsələlərdən biri olduğunu vurğuladı: "Bu məsələ ilə bağlı mən uzun illər fəaliyyət göstərirəm və hökumətə dəfələrlə tapşırıqlar vermişəm. Biz imkan daxilində bu məsələnin həlli ilə bağlı hesab edirəm ki, lazımi addımlar atırıq. Amma biz reallığı nəzərə almalıyıq. Azərbaycanda adambaşına düşən torpaq sahəsi qonşu ölkələrə və bir çox ölkələrə nisbətdə daha azdır. Nəzərə alsaq ki, uzun illər ərazimizin təxminən 20 faizi işğal altında idi, nəzərə alsaq ki, ərazimizin bir hissəsi iqlimə görə, torpağın keyfiyyətinə görə kənd təsərrüfatı üçün yararsızdır, əlbəttə, bu, bizim işimizi çətinləşdirir".**

fikirləri millət vəkili Vüqar Bayramov bildirdi. Dedi ki, buna görə də indiki halda çox vacib məqamlardan biri ərzaq təhlükəsizliyi və ərzaq təminatının gücləndirilməsidir: "Ərzaq təhlükəsizliyi özündə daha çox yerli istehsalın genişləndirilməsi və istehlakın yerli mənbələr hesabına ödənilməsini tələb edir. Ona görə də xüsusən dünya bazarında baş verən qiymət artımlarının Azərbaycan istehlak bazarına təsirini minumuma endirmək üçün yerli istehsalın genişləndirilməsi olduqca vacibdir. Çünki nəticə etibarilə yerli istehsalın genişləndirilməsi həm dünya bazarı ilə ölkədaxili istehlak bazarı arasındakı əlaqəni, həm də idxal inflyasiyasının təsirlərinin transferini azaldır. Digər tərəfdən isə, vətəndaşlarımız üçün daha keyfiyyətli, daha uyğun qiymətə ərzaq təminatının həyata keçirilməsinə şərait yaradır".

V. Bayramov qeyd etdi ki, bu baxımdan işğaldan azad olunmuş ərazilərimizin də ərzaq təminatında və **lansına baxmış olsaq görərik ki, bu dövr ərzində yalnız quş ətinin istehsalına görə Azərbaycan özünü təminetmə səviyyəsinə gəlib çatdı. Bir çox məhsullar üzrə isə, məsələn, kartofun istehsal dinamikasına nəzər salsaq, hətta azalma baş verdiyini görərik. Bir sıra hallarda bu proqramların icrasına nəzarətin gücləndirilməsi çox vacib məsələdir. Proqramların icrasında, strategiyanın formalaşdırılmasında dövlət qurumlarının koordinasiya olunmuş fəaliyyətinin təmin edilməsi mühüm faktordur. İlk növbədə yerli istehsal mühitinin inkişaf etdirilməsi üçün iqtisadi fəaliyyət imkanlarının liberallaşdırılması, təşviq edilməsi, normaların və nəzarət mexanizminin təkmilləşdirilməsi və bu funksiyaları yerinə yetirən institutların şəffaflaşdırılması istiqamətində işlər görülməlidir.**

R.Həsənov dedi ki, bundan başqa, zəruri ərzaq məhsulları üzrə istehsalın miqyasının müəyyənləşdirilməsi... mir. Bu nə qədər doğru yanaşmadır? Nə qədər ədalətlidir? Ona görə də dövlət öz istehlak bazarını formalaşdırmalıdır. Yerli istehsalçılar, kənd təsərrüfatı məhsullarını istehsal edənlər, xüsusilə kiçik ailə təsərrüfatı ilə məşğul olanlar üçün konkret olaraq istehlak bazarı müəyyən edilərsə və eyni zamanda güvənə biləcəkləri bir tələb formalaşdırılarsa, bu, onları ticarətə təşviq edəcək. Həmçinin onların fəaliyyətinin mənfəəti, rentabelliyi təmin olunacaq. Sözsüz ki, Azərbaycan, eləcə də digər ölkələr bütün qida məhsullarını istehsal etmək imkanında deyil. Buna görə də xarici ticarət tərəfdaşları ilə uzunmüddətli müqavilələr bağlanılmalıdır. Həmçinin yerli, xüsusilə ərzaq təminatı bazarında gündəlik məhsulların təminatında iştirak edən şirkətlərə müəyyən dövlət vəsaitləri ilə yardım edilməlidir, stoklarının formalaşdırılması istiqamətində təşəbbüslər artırılmalıdır.

**İqtisadçı qeyd etdi ki, ərzaq təhlükəsizliyi aspektindən əhəmiyyətli olan ölkələrlə preferensial ticarət sazişlərinin bağlanması yolu ilə həmin ölkələrdə istehsal olunan ərzaq məhsullarının ölkəyə daha sərfəli şərtlər daxilində gətirilməsi və idxalçıların bu istiqamətdə meyilliliyinin dəstəklənməsi də vacib nüanslardan biridir. Həmçinin müasir texnologiyaların istehsalatda tətbiqi yolu ilə ərzaq məhsullarının saxlanma müddətinin artırılması həlli gözlənilən digər məsələdir. Çünki müəyyən uzunmüddətli dövrdə təhlükəsizlikdən söhbət gedirsə, bir çox ərzaq məhsullarının saxlanma tələblərinə uyğun şəraitin yaradılması vacibdir. Bütün bu məsələlərlə yanaşı, hesab edirəm ki, ən vacib olan amil isə dövlət qurumlarının koordinasiyalı fəaliyyətinin təmin olunmasıdır.**

**Əsli ƏHMƏDOVA**

# *"Xarici diplomların Azərbaycanda tanınması qaydalarında yumşalmalar olacaq"*



**"Xarici diplomların Azərbaycanda tanınması qaydalarının dəyişməsi ilə bağlı hazırda aktiv iş gedir. Müəyyən mənada yumşalmalar olacağı gözlənilir". Bunu Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri Ülkər Səttarova bildirib.**

Yumşalmalar deyəndə nə nəzərdə tutulur? Bu sualımıza Təhsil Xidmətləri Araşdırma və Təhlil Mərkəzinin rəhbəri Kamran Əsədov aydınlıq gətirdi.

Dedi ki, ilk növbədə qeyd etmək istəyirəm ki, hazırda xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı 40 minə yaxındır. Onlardan 21 mini qardaş Türkiyədə, 8 mini Ukraynada, 6 mindən çoxu Rusiya, Gürcüstan universitetlərində təhsil alır. Xarici ölkələrdə təhsil almaq üçün gedənləri əsasən bir neçə qrupa bölmək olar. Onlardan biri Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında topladıqları balla ölkədə ali məktəblərə qəbul ola bilməyənlərdir. Bunların sayı hədsiz dərəcədə çoxdur. Bu kateqoriyaya aid olan şəxslər daha çox Ukrayna, Rusiya, Dərbənd, Dağıstan, Gürcüstan kimi ərazilərin universitetlərində təhsil almağa üstünlük verirlər. Səbəb isə odur ki, bu universitetlərdə hətta prestijli ixtisaslarda təhsil almasalar belə, qeyri-qanuni yollarla təhsillərini başa vura biləcəklər. Bu ölkələrdə təhsil almağa gedənlərin əksəriyyəti hüquq, maliyyə-iqtisadiyyat kimi ixtisaslara meyil göstərirlər.

**İkinci kateqoriyanı o şəxslər təşkil edir ki, onlar Azərbaycanda ali məktəblərə qəbul olurlar, amma aldıqları təhsil onları qane etmir. Ona görə də daha yüksək səviyyədə təhsil almaq üçün onlar xarici ölkələrə üz tuturlar. Müəyyən şəxslər də var ki, ali təhsil almaq istəyir, amma Azərbaycanda təhsil haqları yüksək olduğu üçün daha ucuz təhsil haqqı olan ölkələrə gedirlər. Bu şəxslər daha çox Türkiyə, Macarıstan və digər Avropa ölkələrinin universitetlərinə üz tuturlar və seçdikləri ixtisaslar tibb, kompüter və ya informasiya texnologiyaları, nano texnologiya kimi ixtisaslar olur.**

Üçüncü kateqoriyanı isə Azərbaycan Respublikası Prezidentinin 2007-2015-ci illəri əhatə edən Xaricdə Təhsil Dövlət Proqramı çərçivəsində xarici ölkələrdə təhsil almağa gedənlər təşkil edir. Bu proqram çərçivəsində daha çox azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi güdülür. Xaricdə Təhsil Dövlət Proqramı üzrə ali təhsil alan gənclər daha çox müəyyən edilmiş prioritet ixtisaslara: beynəlxalq münasibətlər, tibb, baytarlıq, kənd təsərrüfatı, mühəndislik, yüksək texnologiyalar, qədim dillər ixtisaslarına yiyələnirlər.

Təhsil eksperti əlavə etdi ki, hazırda ən ciddi problem xarici ölkələrdə təhsil alanların diplomlarının tanınması ilə bağlıdır. Bu, bəzi hallarda gəncləri xaricdə təhsil almağa göndərən şirkətlərin kommersiya maraqları ucbatından baş verir. Belə ki, lisenziya müddəti bitmiş və akkreditasiyası olmayan universitetlərə qəbul həyata keçirilir. Ona görə də valideynlər xaricdə təhsil ilə bağlı yalnız mütəxəssislərə müraciət etməlidirlər. Valideynlər bilməlidirlər ki, övladlarını Türkiyəyə qiyabi təhsil almağa göndərirlərsə, onun diplomu birmənalı olaraq tanınmayacaq, çünki Türkiyədə qiyabi təhsil yoxdur.

Bundan başqa, tələbələr oxumağa getdikləri ölkədə qiyabi təhsil alacaqlarsa, azı 15 gün, əyani təhsil alacaqlarsa, semestr ərzində 90 gün o ölkənin ərazisində olmalıdırlar.

**K.Əsədov onu da qeyd etdi ki, hər bir xarici ölkəyə oxumağa gedən şəxs "eric-naric" sistemində o universitetin olub-olmamasını yoxlamalıdır. Bunlarla yanaşı, xarici ölkələrdə oxumağa gedənlərin əksəriyyəti o ölkənin tədris dilini bilmirlər. Bu da sonradan onların diplomlarının tanınması zamanı maneəyə səbəb olur.**

**Dünyanı bürümüş koronavirus pandemiyasının hələ ki, sonuncu ştammı- "Omikron" dominantlığı ələ alır. Artıq dünya ölkələrində yoluxma sayında "Omikron" ştammı üstünlük təşkil edir. Hazırda dünyada 51 milyondan çox insan koronavirus infeksiyasının aktiv daşıyıcısıdır. Yaxın həftələrdə dünyada "Omikron"a görə növbəti dalğanın başlanacağı gözlənilir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) mart ayına kimi Avropa əhalisinin yarısından çoxunun "Omikron" ştammına yoluxacağını proqnozlaşdırır. ÜST-ün Baş direktoru Tedros Adhanom Gebreyeus bildirdi ki, COVID-19 pandemiyası artıq üçüncü ildir davam edir və hazırda biz böhran mərhələsindəyik: "Pandemiyanın bu kəskin dövrünü başa vurmaqdan ötrü birgə işləməliyik. Biz bu mərhələnin uzanmasına, çaxnaşma və ya etinasızlıq yaratmasına imkan verə bilmərik. Bu kəskin dövrə son qoymaq üçün əlimizdə bütün vasitələr var. Biz onlardan ədalətli və məntiqlə istifadə etməliyik".**



# VİRUS DAHA MÜLAYİM ŞƏKİLDƏ MUTASİYAYA DOĞRU GEDİR

**Bəs hazırda Azərbaycanda vəziyyət necədir? "Omikron ştamm"nı digər virus növlərindən fərqləndirən əlamətlər hansılardır? Ölkəmizdə vaksinasiya ilə bağlı vəziyyət qənaətbəxşdirmi? Karantin müddətinin azaldılması cəmiyyətdə koronavirusun zəifləməsi barədə fikir formalaşdırmağa əsas verirmi?**




**Suallarımızı Milli Məclisin Səhiyyə komitəsinin üzvü Müşfiq Məmmədliyə ünvanladıq.**

M.Məmmədli dedi ki, əvvəla, onu bildirmək istəyirəm ki, indiyə qədər burun axması, başağrısı, yorğunluq, qoxu itkisi COVID-19 infeksiyasının ümumi simptomları hesab edilirdisə, artıq qulaqda cingiltili səslərin eşidilməsi, ağrıların olması da bu əlamətlər arasındadır. Hətta bəzi xəstələrdə eşitmədə problemin yaşanması "Omikron"un yeganə əlaməti olub. Başgicəllənmə, qulaqda ağrı olarsa, dərhal həkimə müraciət etmək lazımdır.

Alimlərin tədqiqatları nəticəsində sübut edildi ki, "Omikron ştamm"ına insanlar yemək yeyərkən, hətta yeməyin özündən də yoluxa bilər. Virusun bu növü, qidaların üzərinə çöküb, orada uzun müddət qalır. Xüsusən dondurulmuş, soyuq qidalar, fast-food yeməyi, içkilər və sair.

Millət vəkili hazırda ikinci dozada hədəflənən rəqəmə çatdığımızı da vurğuladı. Dedi ki, insanların 70-80 faizinin tam vaksinasiyası aparılıb. Vətəndaşların ikinci dozanı aldıqdan 6 ay keçdikdən sonra möhkəmləndirici doza almaları çox önəmlidir. Çünki aparılan araşdırmalar göstərib ki, "buster" doza almış insanların yoluxma ehtimalı çox az olur, yoluxsalar belə, çox yüngül kliniki əlamətlər ilə keçirirlər. "Omikron ştammı"nın sürətlə yayılması və aparılan tədqiqatlar onu göstərir ki, üç dozanı almış insanlar yoluxarlarsa, 4-5 gün ərzində xəstəliyin klinikası özünü sadəcə yuxarı tənəffüs yollarının yüngül əlamətləri şəklində büruzə verir və qısa müddət ərzində bərpa olunur.

**Səhiyyə qurumlarının son açıqlamasında da göstərildi ki, ikinci dozanın üzərindən 6 ay keçmiş insanlar "buster" doza ilə peyvəndləndikdən sonra müddətsiz peyvənd sertifikatı alırlar. Bu da onu göstərir ki, biz pandemiya ilə mübarizədə həlledici mərhələyə qədəm qoymuşuq. Bu mərhələ də ondan ibarətdir ki, qarşımızda məhdudiyyətsiz günlər üfüqdə görünməkdədir. Bunun üçün hər birimiz vaksinasiyadan keçməklə və bütün dövlət qurumlarının çağırışları istiqamətində addımlar atmaqla həm dövlətimizin, həm də öz sağlamlığımızın möhkəmlənməsinə töhfə vermiş olarıq.**

M.Məmmədli onu da qeyd etdi ki, RNT tərkibli viruslar üçün xarakterik olan bir xüsusiyyət ondan ibarətdir ki, onlar davamlı şəkildə mutasiyaya uğrayırlar: "Mutasiyalar nəticəsində isə müxtəlif istiqamətdə yoluxuculuq qabiliyyəti yüksək olan virusların formalaşması gedə bilər. Yaxud xəstəliyin ağırlaşmasını sürətləndirə bilən mutasiyalar istiqamətində RNT tərkibli viruslarda dəyişiklik baş verə bilər. Xoşbəxtlikdən hazırkı pandemiyada yeni koronavirus törədicisinin yaratdığı xəstəliyə, pandemiya müddətinin gedişinə və uğradığı mutasiyaların tempinə baxsaq indi "Omikron" ştammının yayılması ilə yoluxmaların intensivliyinin artmasının, lakin xəstəliyin şiddətinin nisbətən aşağı düşməsinin şahidi olarıq. Bu da onu göstərir ki, artıq virus daha mülayim şəkildə mutasiyaya doğru gedir".

**Lakin "Omikron" ştammının genetik xüsusiyyətlərini nəzərə alsaq, yoluxma artan xətt üzrə davam edəcək. Odur ki, bir daha "buster" dozanın vacibliyini burada qeyd etmək istəyirəm. Fevralın 15-dən ikinci dozadan 6 ay keçən vətəndaşların peyvənd sertifikatının etibarlı hesab edilməməsini nəzərə alaraq həmin vətəndaşlara tibb məntəqələrində sıxlığın yaranmaması üçün "buster" dozanı vurdurmaq üçün poliklinikalara vaxtında müraciət etmələrini tövsiyə edirəm.**

**Materialları hazırladı: Gülöyşə MƏMMƏDLİ**




**İşləməklə yanaşı, doktoranturada oxuyuram.Yaxın zamanlarda fəlsəfə doktoru olmaq üçün müdafiə etməliyəm. Bilmək istəyirəm, mənə ödənişli, ya ödənişsiz hər hansı bir məzuniyyət düşürmü?**

**Qurban BAYRAMOV,
Bakı şəhəri.**

- Əmək Məcəlləsinin 122-ci maddəsində yaradıcılıq məzuniyyətləri və onların müddətlərindən bəhs edilir. Həmin maddəyə əsasən, işəgötürənlə əmək münasibətlərində olmaqla yanaşı doktoranturada müvafiq elmi dərəcə almaq üçün təhsilini davam etdirən işçilərə dissertasiya işlərini tamamlamaq üçün ödənişli yaradıcılıq məzuniyyətləri verilə bilər.

İşləməklə yanaşı doktoranturada təhsil alan (o cümlədən doktoranturaya daxil olmaq üçün) işçilərə hər tədris ilində 30 təqvim günü ödənişli məzuniyyət verilir.

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini tamamlamaqdan ötrü iki təqvim ayınadək ödənişli yaradıcılıq məzuniyyəti verilir. Bu yaradıcılıq məzuniyyətindən işçi müvafiq elmi şuranın qərarına uyğun olaraq ona verilən arayış əsasında istifadə edir.

Onu da qeyd etmək lazımdır ki, yaradıcılıq məzuniyyəti müddətində ödənilən əməkhaqqı işçinin vəzifəsi (peşəsi) üçün müəyyən olunmuş aylıq əməkhaqqından hesablanır.

Doktoranturada təhsil alan işçilərə, yuxarıda qeyd edilən ödənişli məzuniyyətlərdən başqa, onların yazılı ərizəsi əsasında hər iş ilində 1 təqvim ayınadək ödənişsiz məzuniyyət də verilir.

**Əmək məzuniyyətimin düzgün hesablanmaması ilə bağlı məhkəməyə müraciət etmək istəyirdim. Dedilər ki, əvvəlcə mediasiyaya müraciət etməlisiniz. Bu, vacibdirmi?**

**Şəlmi QƏDİROV,
Salyan şəhəri.**

- Bəli. Mülki Prosessual Məcəllənin 4.6-cı maddəsinə əsasən, kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunur.

Həmçinin məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq, öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər.

Bundan başqa, tərəflərin hər hansı mübahisə ilə bağlı məhkəməyə müraciət etməmişdən əvvəl mediasiya prosesində iştirakını tələb edən müqavilə, müqavilə şərti, yaxud hər hansı digər sənəddə şərt (mediasiyaya dair qeydşərt) olduğu halda da, həmin qaydaya riayət edildikdən sonra mübahisə məhkəmənin həllinə verilə bilər.

**Nikah bağlamaq üçün neçə gün əvvəl müraciət etmək lazımdır? Nikahın bağlanma qaydası haqqında məlumat verməyinizi xahiş edirəm.**

**Aqilə MANAFOVA,
Biləsuvar rayonu.**

- Nikahın bağlanması üçün nikaha daxil olan şəxslərin yazılı razılığı, tibbi müayinədən keçdiklərini təsdiq edən arayışın təqdim edilməsi və onların nikah yaşına çatmaları zəruridir. Respublikamızda nikah yaşı 18 yaş müəyyən edilmişdir.

Amma üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin yerli icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər.

Nikah Ailə Məcəlləsinin 9-cu maddəsində təsbit edilmiş qaydada bağlanılır. Həmin maddəyə əsasən, nikah Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə edilməklə, bu barədə ərizə verdikləri gündən 1 ay sonra onların iştirakı ilə bağlanır.

Üzrlü səbəblər olduqda, nikahın bağlanma müddəti qeydiyyat şöbələri tərəfindən azaldıla və ya 1 aydan çox olmayan müddətə uzadıla bilər.

Belə ki, xüsusi hallarda (hamiləlik, uşağın doğulması və digər hallarda) nikah ərizə verilən gün bağlana bilər.

**Onu da qeyd etmək lazımdır ki, Məcəllənin 12-ci maddəsi ilə arasında nikahın bağlanmasına yol verilməyən şəxslərin dairəsi müəyyən edilmişdir.**

Belə ki,:

- yaxın qohumlar (valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar);
- övladlığa götürənlər və övladlığa götürülənlər;
- ikisindən biri və ya hər ikisi başqası ilə nikahda olan şəxslər;
- tibbi müayinədən keçdiklərini təsdiq edən arayışı təqdim etməkdən imtina edən şəxslər;
- ikisindən biri və ya hər ikisi ruhi xəstəlik və ya kəmağıllıq nəticəsində məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslər arasında nikah bağlanıla bilməz.

Qeydiyyat şöbələri nikahın qeydiyyatından imtina etdikdə nikaha daxil olmaq istəyən şəxslər (onlardan biri) inzibati qaydada və (və ya) məhkəməyə şikayət edə bilərlər.

**İqtisad Məhkəməsinə müraciət etmək istəyirəm. Məsləhətçi iddiamı qəbul etmir. Deyir ki, sizin müqavilədə pretenziya vermək nəzərdə tutulduğuna görə, Siz bu qaydaya əməl edib, əvvəlcə cavabdehə pretenziya göndərib, 1 aydan sonra məhkəməyə iddia verə bilərsiniz. Bu doğrudurmu? Bir də deyirlər ki, iqtisad məhkəmələrinə iddia ərizəsini elektron qaydada göndərmək olar.**

**Mətin MƏMMƏDOV,
Sumqayıt şəhəri.**

- Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

Mülki Prosessual Məcəllənin tələblərinə əsasən, əgər qanunla müəyyən kateqoriya iqtisadi mübahisələr üçün məhkəməyə qədər nizamlama (pretenziya) qaydası müəyyən olunarsa və yaxud bu, tərəflər arasında müqavilə ilə nəzərdə tutularsa, mübahisə həmin qaydaya riayət edildikdən sonra inzibati-iqtisad məhkəməninhəllinə verilə bilər.

30.09.2016-cı ildə Mülki Prosessual Məcəllənin 4-cü maddəsinə edilmiş dəyişikliyə əsasən, iqtisadi mübahisələr ilə bağlı iddia ərizələri, ərizələr, şikayətlər və digər sənədlər məhkəməyə yazılı formada və ya "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinet vasitəsilə "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş elektron sənəd formasında verilə bilər.

**Deyirlər ki, Ələt Azad İqtisadi Zonasında işləyən işçilər üçün başqa qaydalar nəzərdə tutulub. Orda mübahisə yarananda başqa məhkəmələr baxacaq, bu, doğrudurmu?**

**Müşfiq VƏLİYEV,
Bakı şəhəri.**

- Ələt Azad İqtisadi Zonası yaradıldıqdan sonra4 iyun 2018-ci ildə Azərbaycan Respublikası Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin, inkişafının və idarə edilməsinin hüquqi rejimini müəyyən edən "Ələt Azad İqtisadi Zonası haqqında" qanun qəbul edildi. Həmin qanunun 20-ci maddəsinə əsasən, Azad Zona səlahiyyətli qurumu Azad Zona daxilində əmək münasibətlərini tənzimləmək, o cümlədən əməyin təhlükəsizliyini təmin etmək və sosial təminat məsələlərini həyata keçirmək məqsədi ilə daxili qaydalar formasında əmək qaydaları qəbul edir.

Mübahisələrin həlli məqsədilə Arbitraj mərkəzi, mübahisələrin digər həlli qurumu yaradıla bilər.

Azad Zona səlahiyyətli qurumu Azad Zona daxilində mübahisələrin həlli qurumlarının fəaliyyətinin təmin edilməsi, onlar tərəfindən mübahisələrə baxılması və mübahisələrin həlli ilə bağlı münasibətlərin tənzimlənməsi məqsədilə daxili qaydalar formasında mübahisələrin həlli qaydalarını qəbul edir.

Tərəflər müqavilə ilə başqa cür razılaşmadıqda, mübahisələrin həlli qurumları Azad Zona səlahiyyətli qurumunun, Azad Zona inzibati müəssisələrinin, Azad Zona hüquqi şəxslərinin və onların işçilərinin, Azad Zona rezidentlərinin mülki, iqtisadi, əmək və inzibati mübahisələrinin və ya Azad Zona və onun fəaliyyəti ilə bağlı olan hər hansı digər mübahisənin həlli və təfsiri üçün müstəsna yurisdiksiyaya malikdirlər.

Tərəflər müqavilə ilə başqa cür razılaşmadıqda, əsas iqtisadiyyat məhkəmələri Azad Zona səlahiyyətli qurumunun, Azad Zona inzibati müəssisələrinin, Azad Zona hüquqi şəxslərinin və onların işçilərinin, Azad Zona rezidentlərinin tərəfi olduqları mübahisələrə və ya Azad Zona və onun fəaliyyəti ilə bağlı olan hər hansı digər mübahisəyə, bu Qanunda göstərilən hallar istisna olmaqla, baxmaq səlahiyyətinə malik deyildir.

Azad Zona mübahisələrin həlli qurumlarının müstəsna yurisdiksiyasına aid edilən məsələlərə əsas iqtisadiyyatın məhkəmə orqanları və mübahisələrin digər həlli qurumları tərəfindən baxıla bilməz. Azad Zona mübahisələrin həlli qurumları tərəfindən qəbul edilmiş qərarlar icra sənədi hesab edilir və bu qərarlar, Azad Zona apelliyasiya qurumları istisna olmaqla, digər məhkəmə və ya arbitraj tərəfindən ləğv edilə, dəyişdirilə və ya etibarsız hesab edilə bilməz.

**Azərbaycanda peşə təhsilinin hansı səviyyələri vardır? Neçə növ peşə məktəbi mövcuddur?**

**Vəfa SƏMƏDOVA,
Gəncə şəhəri.**

- 24 aprel 2018-ci ildə "Peşə təhsili haqqında" qanun qəbul edilibdir. Həmin qanunun 9-cu maddəsində peşə sisteminin quruluşu təsbit edilmişdir. Qanunun 9.1. maddəsinə əsasən, peşə təhsilinin ilk peşə təhsili, texniki peşə təhsili, yüksək texniki peşə təhsili səviyyələri müəyyən edilibdir.

**Peşə təhsili müəssisələrinin aşağıdakı növləri vardır:**

*peşə məktəbi;
*peşə liseyi;
*peşə təhsil mərkəzi.

Peşə məktəbinə qəbul olunan şəxslərə ilk peşə təhsili və texniki peşə təhsili almaq hüququ verilir.

Peşə liseyinə qəbul olunan şəxslərə ilk peşə təhsili, texniki peşə təhsili, texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil almaq hüququ verilir.

Peşə təhsil mərkəzinə qəbul olunan şəxslərə isə ilk peşə təhsili, texniki peşə təhsili, texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil və yüksək texniki peşə təhsili, yüksək texniki peşə təhsili ilə yanaşı, orta təhsil almaq hüququ verilir.

Peşə təhsil müəssisələrində ixtisasartırma və yenidənhazırlanma kursları təşkil olunur.

**Sorğuları şərh etdi:
AHİK-in Hüquq şöbəsi**

**Əmək müqaviləsinin qüvvəyə minməsi haqqında məlumat verməyinizi xahiş edirəm.**

**Səlim ƏLİZADƏ,
Gəncə şəhəri.**

- Əmək Məcəlləsinin 49-cu maddəsi əmək müqaviləsinin hüquqi qüvvəyə minməsinə həsr edilib. "Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" 28 dekabr 2018-ci il tarixli AR Qanunu ilə həmin maddəyə dəyişiklik edilibdir. Qüvvədə olan Əmək Məcəlləsinin 49-cu maddəsinə əsasən, əmək müqaviləsi aşağıda qeyd edilən qaydada hüquqi qüvvəyə minir:

1. Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi və bu maddənin 1-2-ci hissəsi ilə müəyyən edilmiş hallar istisna olmaqla, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsilə daxil edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir.

1-2. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yerli icra hakimiyyəti məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınması üçün ərizədə qeyd olunmuş şəxslərlə ilk dəfə bağlanmış əmək müqaviləsi həmin Qanunla müəyyən olunmuş qaydada dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış və nizamnamə cəmiyyətin elektron kabinetinə göndərildiyi andan hüquqi qüvvəyə minir.

2. Elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsilə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınması barədə 1 iş günündən gec olmayaraq sistem vasitəsilə işəgötürənə elektron qaydada məlumat göndərilir.

2-2. Bu maddənin 1-2-ci hissəsi ilə müəyyən olunmuş hallarda elektron informasiya sisteminə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurum) tərəfindən daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınması barədə 1 iş günündən gec olmayaraq sistem vasitəsilə işəgötürənə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) elektron qaydada məlumat göndərilir.

3. Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş dövlət orqanlarında müvafiq vəzifələrə (peşələrə) qəbul edilən (götürülən) işçilərlə işəgötürənlər arasında bağlanılmış əmək müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, o, tərəflər imzaladığı gündən hüquqi qüvvəyə minir. Həmin əmək müqaviləsinin hər hansı dövlət orqanında və ya digər qurumlarda qeydiyyata alınması, təsdiq edilməsi yolverilməzdir.

4. Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı qaydalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Şəhid və şəhid ailəsi statusunun verilməsi hansı qaydada həyata keçirilir?**

**Vəzifə CƏMİLOVA,
Bakı şəhəri.**

- Qanunvericiliyə əsasən, şəhid və şəhid ailəsi statusunun verilməsi məsələsinə maraqlı şəxsin müraciəti və dövlət orqanlarının və ya müvafiq hərbi hissənin vəsatəti ilə baxılır.

Şəxsin şəhid hesab edilməsi ölüm haqqında şəhadətnamə, məhkəmə qətnaməsi, hərbi hissənin arayışı əsasında təsdiq olunur. Hərbi hissənin arayışında Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri Nizamnaməsi"nin 16 saylı əlavəsinin 1.4.2-ci maddəsində göstərilən məlumatlar əks edilir.

Nizamnamənin 16 saylı əlavəsinin 1.4.2-ci maddəsində qeyd edilir ki, müvafiq hərbi hissənin arayışında hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı, habelə atəşkəs dövründə döyüş şəraitində olan hərbi hissələrdə döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi, yaxud dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı həlak olması faktı öz əksini tapmalıdır.

Şəhid ailəsi statusu gizir və zabit heyəti üçün Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidmətinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin kadrlar idarəsi, digər hərbi qulluqçulara hərbi qeydiyyatda olduqları Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq olaraq yerli idarə, şöbə və bölmələri, mülki vətəndaşlara isə rayon (şəhər) icra hakimiyyəti orqanlarının verdiyi arayışlarla təsdiq olunur.

Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Xüsusi Dövlət Mühafizə Xidməti və rayon (şəhər) icra hakimiyyəti orqanları şəhid və şəhid ailəsi hesab edilməsi üçün müraciət və vəsatətləri dərhal qəbul edib, bir aydan gec olmayaraq "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununa və bu Qaydalara müvafiq surətdə arayış verməlidir.

Müdafiə Nazirliyinin zabit və gizir heyətinə münasibətdə şəhid və şəhid ailəsi hesab edilməsi üçün arayışların verilməsi, habelə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən digər hərbi qulluqçulara (əsgər, matros və çavuş heyəti) münasibətdə şəhid və şəhid ailəsi hesab edilməsi üçün arayışların verilməsi məqsədilə maraqlı şəxs "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə də müraciət edə bilər.

**İşçinin sağlam və təhlükəsiz əmək şəraitinə təminat verilməsi barədə əmək müqaviləsində qeyd olmalıdırmı?**

**Gülüş QƏDİMOVA, Şabran şəhəri.**

- Bəli, əmək müqaviləsində hökmən işəgötürən tərəfindən işçinin sağlam və təhlükəsiz əmək şəraitinə təminat verilməsi barədə öhdəliyi göstərilməlidir.

İşçi peşə xəstəliyinə tutulmağa yüksək təhlükə mənbəyi olan işə qəbul edilərkən belə xəstəliyə tutulmağın ehtimal olunan müddəti barədə işəgötürən onu hökmən xəbərdar etməlidir. Bu halda yalnız həmin müddətli məhdudlaşdırılan müddətli əmək müqaviləsi bağlanmalı və onun müddəti bitdikdən sonra işçiyə əvvəlki orta əməkhaqqı saxlanılmaq şərtilə başqa iş verməlidir. ( Əmək Məcəlləsi-maddə 224)

# Səhiyyə və qayğı sektorunda işçi böhranı



**Bir çox Avropa ölkəsi "omikron"un sürətli yayılması səbəbindən səhiyyə və qayğı sektorunda ciddi çatışmazlıqlarla üzləşir. COVID bu böhranı daha da ağırlaşdırdı. Demək olar ki, bütün Avropa İttifaqı ölkələri tibbi kadr çatışmazlığı barədə həyəcan təbili çalır. Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Federasiyası da kəskin kadr çatışmazlığına (təxminən iki milyon işçi) diqqət yönəldib. Hökumətlər səhiyyə və qayğı sektoruna ayrılan maliyyəni əhəmiyyətli dərəcədə artırmalı və işçilərin investisiya ehtiyacına cavab verməlidir. "Omikron" dalğası bu sərmayənin nə qədər vacib olduğunu nümayiş etdirir. Çünki Ümumdünya Səhiyyə Təşkilatı bir daha vurğulayır ki, bu pandemiyaya qarşı mübarizədə ən böyük məsuliyyət səhiyyəmizin və tibb işçilərinin üzərinə düşür.**

Avropa Komissiyası tərəfindən keçirilmiş "Əmək bazarı və əməkhaqqının dinamikası haqqında hesabat" adlı son araşdırma əmək bazarlarının 2020-ci ildə COVID-19-dan sonrakı son tənəzzülə necə reaksiya verdiyinə diqqət yetirir. Orada səhiyyə sahəsində kadr çatışmazlığının həqiqətən də pisləşməsi müşahidə edilir. Bütün Avropadan gələn son məlumatlar "omikron" səbəbindən vəziyyətin daha da acınacaqlı olduğunu göstərir. Məlumdur ki, zəif əməkhaqqı və pis əmək şəraiti kadr çatışmazlığının əsas səbəbidir. Maliyyə qaydalarına yenidən baxılması ilə üzv dövlətlərə səhiyyə və qayğı işçilərinin kütləvi şəkildə işə götürülməsini təmin etmək üçün dövlət xərclərini əhəmiyyətli dərəcədə artırmaq imkanı verilməlidir.

**Həmkarlar ittifaqları və digər təşkilatların son hesabatları işçilərin, o cümlədən intensiv terapiya işçilərinin işdən çıxdıqlarını göstərir. Səbəblər isə müxtəlifdir: stres, iş yerində qeyri-kafi qorunma, işlərinin tanınması və çox aşağı əməkhaqqı. Pandemiyanın Avropada səhiyyə işçilərinə fəlakətli təsiri hələ də davam etməkdədir.**

# Dördgünlük iş həftəsinin tətbiqi



**Üç Böyük Britaniya şirkəti ( telekommunikasiya, videooyun tərtibatçısı və təlim şirkəti) əməkhaqqı azaldılmadan dördgünlük iş həftəsinin tətbiqi üzrə sınaqda iştirak etmək üçün qeydiyyatdan keçib. Təcrübəyə Kembric və Oksford alimləri, həmçinin Boston Kolleci (ABŞ) və "Autonomy" analitik mərkəzi rəhbərlik edir.**

Ümumi sayı 280 nəfər olan "Yo Telecom", "Hutch" və "MBL" əməkdaşları əməkhaqqı azalmadan 32 saatlıq iş həftəsinə keçəcəklər. Ola bilər ki, araşdırmaya 500-dən çox əməkdaşı olan başqa bir şirkət də qoşulsun. Bu layihənin böyük rezonans doğurduğu və təkcə cəmiyyət tərəfindən deyil, həm də biznes tərəfindən maraq göstərdiyi qeyd edilir: yüzlərlə müəssisə informasiya sessiyalarında qeydiyyatdan keçmiş, yaxın gələcəkdə test rejimində belə bir qaydanın tətbiq edilməsinin ciddi mümkünlüyünü nəzərdə tutmuşdur.

Bir neçə müəssisə dördgünlük həftəni müstəqil şəkildə tətbiq edib. Onların arasında mobil əlavəyə əsaslanan virtual "Atom Bank" və beşulduzlu "Landmark London" oteli də var.

**Həmkarlar ittifaqları Böyük Britaniyada aşağı işsizlik səviyyəsinin (işçi qüvvəsinin 4,1 faizinin) işçilərin daha yüksək gəlirlərə səbəb olacağına ümid etdiklərini bildirib. Eyni ödəniş üçün iş vaxtının azaldılması boş vaxtlarında başqa işlə, təhsil və ya hobbi ilə məşğul ola bilən işçilərə daha çox imkanlar yaradır. Southamptonda yerləşən "Yo Telecom" şirkətinin baş direktoru Natan Hanslip əlavə istirahət gününün daha sağlam heyət və daha yaxşı müştəri xidməti ilə nəticələnəcəyinə ümid etdiyini söyləyib: "Mənə elə gəlir ki, komandamızın faydalanacağı əlavə istirahət günü məhsuldarlığını, iş məmnunluğunu və ümumi rifahı əvvəllər cəhd etdiyimiz hər şeydən daha yaxşı artıracaq".**

# Söz azadlığının qorunması




**Rəqəmsal hüquq müdafiəçiləri, həmkarlar ittifaqları və digər qurumların nümayəndələrindən ibarət geniş koalisiya böyük texnoloji şirkətlərin rəqəmsal xidmətlər üzərində hökmranlığını məhdudlaşdırmağa müvəffəq olub. "Xalq Bəyannaməsi" ətrafında mərkəzləşmiş koalisiya Avropa Komissiyasının təklif etdiyi qanunvericiliyə müəyyən düzəlişlər edib. Əsas narazılıq doğuran müddəalar Avropa Parlamenti tərəfindən 2022-ci il yanvarın 20-də qəbul edilib. Parlamentin bundan sonra üzv dövlətlərlə danışıqlara başlayacağı gözlənilir.**

Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Federasiyası "Xalq Bəyannaməsi" koalisiyasına qoşulan ilk həmkarlar ittifaqı təşkilatıdır. Buraya "Amnesty İnternational", Korporativ Avropa Rəsədxanası və 110-dan çox təşkilat da daxildir. Koalisiyanın məqsədi iri texnoloji şirkətlərin məlumatlarımıza nəzarət etmək imkanlarını məhdudlaşdırmaq, insanların məxfiliyini qorumaq, arzuolunmaz və hədəflənmiş reklam biznes modelini, sözdə nəzarəti aradan qaldırmaq idi. Koalisiyanın müdafiə etdiyi təcrübə qadağan edilməsə də, bu, uğurlu oldu. Parlament insan hüquqlarının, o cümlədən söz azadlığının qorunmasını təmin edən əlavə düzəlişlər qəbul edib. Nəticədə onlayn - istifadəçilər üçün daha təhlükəsiz məkana çevrilir. Google, Facebook (Meta) və başqaları kimi böyük texnologiyalar tərəfindən arzuolunmaz nəzarəti məhdudlaşdırmaq üçün daha çox iş görülməlidir.




# *Həmkarlar ittifaqlarının hüquqlarının müzakirəsi*

**Yanvarın 25-26-da Şimal və Şimal-Şərqi Avropa dövlətlərinin ictimai xidmət işçiləri öz ölkələrində həmkarlar ittifaqlarının hüquqlarını müzakirə etmək üçün onlayn görüşüblər.**

Görüş Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Federasiyasının (EPSU) Avropa Polisi (EuroCOP) və Hərbi Qulluqçular (EUROMIL) federasiyaları ilə birgə həyata keçirdiyi həmkarlar ittifaqlarının hüquqlarının müdafiəsi üzrə iki illik layihənin üçüncü regional konfransı olub. Avropa Komissiyası tərəfindən maliyyələşdirilən layihə ötən ilin may ayında başlayıb və əsas diqqəti bütün dövlət qulluqçularının həmkarlar ittifaqı hüquqlarının, xüsusilə təşkilatlanma, danışıqlar və kollektiv fəaliyyət kimi fundamental hüquqlarının qorunması və genişləndirilməsi zərurətinə yönəldir.

**Layihə həmçinin Avropa İttifaqının "Əmək şəraitinin şəffaflığı və proqnozlaşdırılması Direktivi"nə (TPWCD) və xüsusən də hökumətlərin ictimai sektorun milyonlarla işçisinə yeni hüquqlardan imtinasına imkan verəcək bir istisna bəndindən istifadə etməyə çalışıb-çalışmadığına nəzarət edir.**

**Görüşdə aşağıdakı məsələlər barəsində müzakirələr aparıldı:**

*• Danimarka, Estoniya, Finlandiya, Latviya, Litva, Polşa və İsveçdə ictimai xidmət sahələrində həmkarlar ittifaqının hüquqları;*

*• Avropa Komissiyasına qarşı EPSU-un iddiasından sonra Avropada sosial dialoq sahəsində baş verən proseslər;*

*• TPWCD-nin milli qanunvericiliyə köçürülməsi;*

*• Həmkarlar ittifaqlarının müdafiəsi və səlahiyyətlərinin artırılması üçün hüquqi strategiyalar;*

*• İctimai xidmətdə əmək münasibətləri haqqında Beynəlxalq Əmək Təşkilatının (BƏT) 151 saylı Konvensiyasının əhəmiyyəti.*

**Layihə üzrə ilkin tədqiqat qrupunun rəhbəri, Gent Universitetinin əməkdaşı Aleksandr de Bekker iclası açaraq Avropa Birliyinin 7 ölkəsinin ümumi vəziyyətinin icmalını verdi. O, Skandinaviya regionunda, xüsusilə Danimarka və İsveçdə həmkarlar ittifaqı hüquqlarının güclü ənənəsinin olduğunu qeyd etdi. Həmçinin dedi ki, həmkarlar ittifaqı üzvlərinin sayının və kollektiv danışıqların əhatə dairəsinin çox aşağı səviyyədə olduğu Baltikyanı ölkələr və Polşada vəziyyət tamamilə fərqlidir. Kollektiv danışıqlar və ictimai xidmət işçiləri üçün kollektiv fəaliyyət hüququ ilə bağlı bəzi məhdudiyyətlər var. Bununla belə, o vurğuladı ki, son vaxtlar Litvada səhiyyə, sosial təminat və digər ictimai xidmətlər sahəsində sahə kollektiv müqavilələrin bağlanmasında müəyyən irəliləyişlər əldə olunub.**

Norveçin Polis İşçiləri Həmkarlar İttifaqından Veqar Monsfall kağız üzərindəki hüquqların praktikada hüquqlara zəmanət vermədiyini və hökumətlərin həyat və ya milli təhlükəsizliyə hər hansı təhlükə əsasında kollektiv fəaliyyətə nəzarət etmək üçün müdaxilə edə biləcəyini vurğuladı.

Danimarkanın "HKKF" hərbi həmkarlar ittifaqının üzvü Paul Sorenson tətil hüququna qadağalar və ya əhəmiyyətli məhdudiyyətlərlə üzləşdikdə həmkarlar ittifaqlarının kollektiv danışıqlarda necə təsirli ola biləcəyinə aydınlıq gətirdi. O, təmsil etdiyi qurumun tətil etmək hüququ olan həmkarlar ittifaqları da daxil olmaqla, dövlət sektorunda daha geniş danışıqlar qrupunun bir hissəsi olmasının çox faydalı olduğunu izah etdi.

**Litvanın "LITUF" sahə həmkarlar ittifaqının nümayəndəsi Dalia Yakutavice yeni əmək məcəlləsinin bəzi əsas müddəalarını, xüsusən də kollektiv fəaliyyət hüququnu izah etdi.**

EPSU-nun nümayəndəsi Nadia Salson Avropa Sosial Dialoqunun rolu və həmkarlar ittifaqı hüquqlarının möhkəmləndirilməsində onun potensialından danışdı. Direktivin təqdim etdiyi yeni hüquqları izah etdi. Həmkarlar ittifaqları Beynəlxalq Əmək Təşkilatı (BƏT) və Avropa Şurasının Avropa Sosial Xartiyası ilə məşğul olan və əmək hüquqlarının pozulması hallarında fərdi və kollektiv şikayət sistemlərini nəzərdə tutan komitəsi kimi beynəlxalq orqanlar vasitəsilə öz əsas hüquqlarını müdafiə etmək imkanına malikdir.

Danışıqların təşkili və aparılması üçün əsas hüquqlar BƏT-in 87 və 98 saylı konvensiyalarında qeyd olunduğu halda, ictimai xidmət sahəsində əmək münasibətləri haqqında 151 saylı Konvensiya ictimai xidmət işçiləri həmkarlar ittifaqlarına kömək edə biləcək bir sıra əlavə hüquqları nəzərdə tutur. BƏT-in ictimai xidmətlər üzrə eksperti Karlos Carrion Crespo bu Konvensiyanın əsas maddələrindən danışdı.

**Naycel Dennis (EuroCOP), Antonio Lima Koelyo (EUROMIL) və Riçard Pond (EPSU) seminarı bir neçə əsas məqamla yekunlaşdırdılar:**

*• həmkarlar ittifaqı hüquqlarını inkişaf etdirmək üçün federasiyalar daxilində birgə işləməyin faydaları və silahlı qüvvələrə, polisə və ya digər xüsusi işçi qruplarına hüquqlarının hər hansı inkarının bütün ictimai xidmət işçilərinin hüquqlarına təhlükə olduğunu dərk etmək;*

*• layihənin tədqiqinin və yekun hesabatın əhatə dairəsini və tətildən kənar hərəkətlər də daxil olmaqla, kollektiv hərəkətləri daha geniş şəkildə nəzərdən keçirmək;*

*• müqayisəli hesabat və ya ölkə üzrə spesifik hesabatlara cavablar əsasında Avropa Şurasının Avropa Sosial Komitəsinin işinə necə müdaxilə etmək.*

# QLOBAL ÇƏRÇİVƏ SAZİŞİNİN ÜSTÜNLÜKLƏRİ

**İndustriall və İtaliya həmkarlar ittifaqları ( Filctem CGIL, Femca CISL, Uiltec UIL) "ENİ" enerji şirkəti ilə BƏT-in 190 saylı Konvensiyasının və 206 saylı tövsiyəsinin (iş dünyasında zorakılığın və təcavüzün aradan qaldırılması) müddəalarına dair hazırkı qlobal çərçivə sazişinə əlavə imzalayıb.**

Sazişdə deyilir ki, "ENİ" zorakılıq və təcavüzdən azad iş dünyası təmin etməlidir.

**Bundan başqa, əsas aspektlərə daxildir:**

*-İşdə zorakılıq və təcavüzün hər hansı bir formasını qadağan edilir;.*

*-Gender əsaslı zorakılıq və təcavüzə xüsusi diqqət, ən həssas qruplara hərtərəfli müdafiə;*

*-Müqavilə, məşğulluq statusundan asılı olmayaraq, bütün ENİ işçilərinə şamil edilir;*

*-Müqavilə təkcə iş yerinə deyil, BƏT-in 190 saylı Konvensiyasında nəzərdə tutulduğu kimi, bütün əmək sahəsinə də şamil edilir. Bu da fiziki iş yerindən kənarda, o cümlədən rəqəmsal alətlərdən istifadə yolu ilə baş verən zorakılıq və təzyiq deməkdir;*

*-Zorakılıq və təcavüzə qarşı mübarizə mədəniyyətinin təşviqi, məlumat və maarifləndirmə, qabaqlayıcı tədbirlərin həyata keçirilməsi;*

*-Bütün işlərin lazımi qaydada araşdırılmasını təmin edən hesabat sistemi məxfiliyə (qurbandan və qisasdan qorunmağa) zəmanət verir.*



İndustriALL-in Baş katibi Atle Haye deyib ki, zorakılıq və təzyiqdən azad iş dünyası bütün işçilərin, xüsusən də zorakılıqdan qeyri-mütənasib şəkildə əziyyət çəkən qadınların əsas hüququdur. Konvensiya həmçinin qlobal çərçivə sazişinə vacib məqamları əlavə etmək imkanı verir. İndustriALL üçün prioritet olan da budur. Üzv təşkilatlar bildirirlər ki, qlobal çərçivə sazişləri iş yerində siyasət və məlumatlılığın artırılması üçün mühüm rıçaqdır.

**İndustriALL həmçinin məişət zorakılığının əmək sahəsinə təsiri, habelə işəgötürənlərin bu təsiri azaltmaq üçün atmalı olduğu addımlar haqqında qlobal çərçivə sazişinə müddəalar daxil etməyə çalışır.**

**Materialları hazırladı: Azər MUSTAFAYEV**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
Son səhifə
CÜMƏ AXŞAMI, 03 FEVRAL 2022-Cİ İL / № 04 (1271)



# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ KİMLƏRƏ VERGİ GÜZƏŞTLƏRİ VERİLƏCƏK?

**Ermənistanın işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa və quruculuq işləri ilə yanaşı, zəngin iqtisadi sərvətləri olan bu torpaqların milli iqtisadiyyata inteqrasiyası istiqamətində tədbirlər davam etdirilməkdədir. Strateji plana əsasən, həmin bölgədə istehsal, emal, ticarət və xidmət infrastrukturunun yaradılması, yeni texnologiyaların tətbiqi, investisiya cəlbediciliyinin təmin edilməsi nəzərdə tutulur. Bu məqsədlə sahibkarları həvəsləndirmək üçün xüsusi vergi-gömrük güzəştləri, müxtəlif iqtisadi, maliyyə və institusional stimulların tətbiqi hazırlanır.**

Prezident İlham Əliyevin 10 dekabr 2021-ci il tarixli "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamına əsasən, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi barədə Vergi Xidmətinə təkliflər hazırlamaq tapşırılıb.

Hazırda Dövlət Vergi Xidməti tərəfindən həmin ərazilərin iqtisadi diaqnostikası aparılır və bu dərin təhlillər əsasında təkliflər hazırlanır. Sənədə əsasən, işğaldan azad edilmiş ərazilərin inkişafı üçün vergi təşviqlərinin tətbiq olunması, yeni istehsal sahələrinin qurulmasına görə kapital qoyuluşlarına uyğun olaraq mənfəət vergisinə güzəştlərin verilməsi, turizmin inkişafı üçün vergi təşviqlərinin təmin olunması nəzərdə tutulubdur.

Təkliflərə əsasən, Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olacaq mülkiyyətçilərin torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilməsi nəzərdə tutulur. Bundan başqa, Qarabağ bölgəsi böyük sənaye potensialına malikdir. Sənaye zonalarının investisiya cəlbediciliyini artırmaq üçün hazırda Sənaye Texnologiyalar Parklarında, Ələt Azad İqtisadi Zonasında vergi və gömrük siyasəti təşviq edilir, azad edilmiş ərazilərdəki sənaye müəssisələri üçün də bu güzəştlər şamil olunacaqdır. Cəbrayılda yeni fəaliyyətə başlayan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında ilk xarici investorlar qeydə alınıb, Rusiyanın "KamAZ" ASC şirkəti tərəfindən bu ərazidə ilk investisiya layihəsinin icrası yaxın günlərdə baş tutacaqdır. Həmin sərmayəçilər üçün vergi güzəştləri nəzərdə tutulubdur.

Hazırda 50-dən çox xarici şirkət işğaldan azad edilmiş ərazilərin bərpası üzrə layihələrdə iştirak etmək üçün hökumətə müraciət edib. Onların sırasında Türkiyə, Rusiya, Pakistan, Macarıstan, Qazaxıstan, Çin, İtaliya, İsrail və Cənubi Koreya şirkətləri əsas yer tutur. Və onlar üçün də vergi güzəştlərinin tətbiqi planlaşdırılır. Həmçinin yerli sahibkarların da işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyi hədsiz dərəcədə böyükdür. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) indiyə qədər 980 sahibkar müraciət edərək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında işləmək niyyətlərini bildiriblər. İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlıq subyektlərinə, o cümlədən kiçik və orta sahibkarların həm mənfəət, həm də gəlir vergisi üzrə güzəştlərlə əhatə olunması nəzərdə tutulur.



**Yerli sahibkarlıq subyektlərinin böyük bir hissəsinin investisiya təşviqi sənədi əldə etməsini nəzərə alsaq, onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş vergi güzəştləri ilə əhatə edilməsi daha asan olacaqdır. Çünki investisiya təşviqi sənədi almış hüquqi şəxslər və fərdi sahibkarlar 7 il müddətinə bir sıra vergiləri və rüsumları ödəməkdən azaddırlar: hüquqi şəxslər və fərdi sahibkarlar əldə etdikləri mənfəətin 50 faizinə görə mənfəət (gəlir) vergisi, müvafiq investisiya layihəsi çərçivəsində investisiya vəsaiti hesabına əldə edilmiş əmlaklarına görə əmlak vergisi, mülkiyyətində və ya istifadəsində olan müvafiq torpaqlarına görə torpaq vergisi, təsdiqedici sənəd əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə ƏDV və gömrük rüsumundan azaddır.**

2022-ci il yanvar ayının 1-dən 3 il müddətinə kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması, habelə kənd təsərrüfatı texnikalarının operativ lizinqə verilməsi və kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı aqrotexniki xidmətlər də ƏDV-dən azad edilibdir. Ona görə də, bu qrupa daxil olan bütün sahibkarların azad edilmiş ərazilərdə ən azı 5 növ vergi ödəməyəcəyi indidən bəllidir.

Vergi Məcəlləsində ediləcək dəyişikliklərdən sonra digər biznes üzvləri üçün də vergi güzəştlərinin tətbiqinə başlanılacaq.

İşğaldan azad edilmiş ərazilərdə sosial sığorta və digər güzəştlər tətbiq ediləcək. Həmçinin, işğaldan azad edilmiş ərazilərə fəaliyyət göstərən sahibkarlara daha sərfəli və güzəştli bank kreditlərinin verilməsi üçün İqtisadiyyat Nazirliyinə və Mərkəzi Banka tapşırıqlar verilib. Sahibkarların təqdim etdikləri biznes-planda işğaldan azad edilmiş əraziləri nəzərdə tutan layihələrə üstünlük veriləcək və güzəştli kreditləri ilk növbədə onlar əldə edəcəklər.

Vegi güzəştlərinin hansı əhəmiyyəti olacaqdır?

**Kənd Təsərrüfatı Nazirliyi Aqrar Tədqiqatlar Mərkəzinin rəhbəri Firdovsi Fikrətzadənin fikrincə, işğaldan azad olunmuş ərazilərə iqtisadi stimulların verilməsi ilk növbədə kənd təsərrüfatında əhəmiyyətli dönüş yaradacaq. Ağdam və Füzulinin işğala məruz qalmayan sahələri də nəzərə alınmaqla, azad olunmuş ərazilərdə təqribən 232.8 min hektar sahədə əkin sahələri mövcuddur. Həmçinin 430 min baş iribuynuzlu, 1,6 milyon baş xırdabuynuzlu heyvanlardan ibarət fermaların qurulması üçün potensial vardır. Regionun tarixən heyvandarlıq sahəsi üzrə mövcud olan potensialı və təbii-relyef xüsusiyyətləri nəzərə alınmaqla, gələcək dövrdə də heyvandarlıq ağırlıqlı kənd təsərrüfatı istehsalı üstünlük təşkil edəcək. Bu bölgədə ət və süd məhsulları müəssisələri, üzümçülük, tütünçülük, baramaçılıq və arıçılıq sahələrinin bərpası və genişləndirilməsi həyata keçiriləcək. Bundan əlavə, regionda yeni aqrar layihələr, intensiv meyvəçilik sahəsinin inkişafı da nəzərdə tutulub. Proqnozlara görə, həmin torpaqlarda kənd təsərrüfatı sahələrinin inkişafını stimullaşdıran dəstək tədbirləri nəticəsində yaxın illərdə kənd təsərrüfatında real artımın 9 faizi, o cümlədən ölkə üzrə buğda istehsalının 10-12 faizi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əldə ediləcəkdir. İlkin mərhələdə bütövlükdə bu ərazilərdə 1 milyard manatlıq əkinçilik məhsulları yetişdirmək mümkün olacaq ki, bunun da əhəmiyyətli hissəsinin buğda və taxıl olması gözlənilir.**

**Elbrus CƏFƏROV**

# *Təhsil işçiləri arasında idman yarışları keçirilib*



**2 Fevral - Gənclər Günü münasibətilə Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Suraxanı Rayon Komitəsinin təşkilatçılığı ilə təhsil işçiləri arasında idman (voleybol və minifutbol üzrə) yarışları keçirilib. Yarışlarda rayonun 60 nəfərdən çox müəllimi iştirak edib.**

Yekun nəticəyə görə I yeri 76 saylı, II yeri 85 saylı, III yeri isə 317 və 285 saylı tam orta məktəblərin komandaları tutub. Qalib komandalar Fəxri Fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**Yarışların gedişində Suraxanı Rayon Gənclər və İdman İdarəsinin nümayəndələri iştirak ediblər.**

**İTKİ**

**Odlar Yurdu Universitetinin Metodika fakültəsini 21.06.2003-cü ildə bitirmiş Səfərova Gülnar Əyyub qızına verilmiş diplom itdiyi üçün etibarsız sayılır.**

# Ötən ilin yekunları və növbəti ilin tədbirlər planı

**Yanvarın 31-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Gender Bərabərliyi və Qadın Problemləri üzrə Mərkəzinin 2021-ci ilin yekunlarına dair hesabatı mövzusunda vebinar keçirilmişdir.**

**Vebinarı giriş sözü ilə AHİK-in Gender Bərabərliyi və Qadın Problemləri üzrə Mərkəzinin sədri Cəmilə Səttarova açmışdır. O, əvvəlcə Mərkəzin 2006-2021-ci illərdə göstərdiyi fəaliyyəti əks etdirən yenicə çapdan çıxmış nəşr haqqında məlumat verdi. Sonra ötən ilin hesabatını təqdim etdi. Dedi ki, Mərkəzin 2022-ci il üçün Tədbirlər Planına dair təkliflər hazırlanıb təqdim olunsun. Vebinarda Mərkəzin sahə həmkarlar ittifaqlarında yaradılmış komissiyalarının sədrləri hesabat məruzələri ilə çıxış etdilər.**



## ALLAH RƏHMƏT ELƏSİN!

"Xidmət-İş" Hİ Federasiyasının prezidenti İlyas Əliyev və aparat işçiləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dəmiryolçuların Müstəqil HİRK-in sədri Fəzail Bağırov və aparat işçiləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təhsil İşçiləri Azad HİRK-in rəhbərliyi və aparat işçiləri sahə Hİ Xocavənd Rayon Komitəsinin sədri Ədalət Əliyevə qardaşı
**VİLAYƏT ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təhsil İşçiləri Azad Hİ Xətai Rayon Komitəsinin sədri Maisə Hacıyeva sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Nizami Rayon Komitəsinin sədri Fərhad Əliyev sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Şəki Şəhər Komitəsinin sədri Ziyafət Xasiyeva sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Bərdə Rayon Komitəsinin sədri Tamilla İbadova sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Abşeron Rayon Komitəsinin sədri Vahid Əliyev sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Suraxanı Rayon Komitəsinin sədri Fərhad Həsənov sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Şirvan Şəhər Komitəsinin sədri Niyazi Nəcəfov sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Gədəbəy Rayon Komitəsinin sədri Zakir Orucov sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Kürdəmir Rayon Komitəsinin sədri Cəbrayıl Cəbrayılov sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ İsmayıllı Rayon Komitəsinin sədri Hafiz Kərimov sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Laçın Rayon Komitəsinin sədri Pərviz Xaspoladlı sahə Hİ Xocavənd Rayon Komitəsinin sədri Ədalət Əliyevə qardaşı
**VİLAYƏT ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Cəbrayıl Rayon Komitəsinin sədri Alim Babayev sahə Hİ Xocavənd Rayon Komitəsinin sədri Ədalət Əliyevə qardaşı
**VİLAYƏT ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7504
Sifariş: 370
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
**Sərbəst qiymət**